AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

CÜMƏ AXŞAMI, 05 MAY 2022-Cİ İL / № 16 (1283)   WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

## Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak ediblər.**

**AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verdi.**

**Bildirildi ki, doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi 2.76 hektar ərazidə inşa olunub. Kompleksdəki binalarda ümumilikdə 36 birotaqlı, 144 ikiotaqlı, 360 üçotaqlı və 36 dördotaqlı mənzil vardır.**

**Kompleksin ərazisində 100 yerlik uşaq bağçası və bir inzibati bina inşa olunub. Həmçinin sakinlərin və övladlarının asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılıb və kompleks bütün zəruri infrastrukturla təmin edilib.**

**Şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunmasının məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi isə təsadüfi deyil. Humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və islam dəyərlərinə sadiqlik Azərbaycan Prezidentinin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindəndir.**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdəki uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.**

**Sonra dövlətimizin başçısı və birinci xanım Vətən müharibəsində şəxsi igidliyinə və şücaətinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş şəhid Mahir Məmmədovun ailəsinin qonağı olublar.**

Prezident İlham Əliyev şəhidin ailə üzvləri ilə söhbətində dedi:

**- İlk növbədə, sizi Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm. Biz bu bayram günündə Bakı şəhərində yeni şəhərciyin açılışını qeyd edirik. Şəhid ailələri üçün nəzərdə tutulan mənzillərdə həm şəhid ailələri, həm müharibə əlilləri yaşayacaqlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah sizin oğlunuza rəhmət eləsin. Böyük faciədir, böyük itkidir. Siz oğlunuzu itirmisiniz, siz həyat yoldaşınızı, siz isə qardaşınızı. Bilirəm ki, Mahir çox qəhrəman bir insan idi, Aprel döyüşlərində də iştirak etmişdi. Vətən müharibəsində də xüsusi qəhrəmanlıq göstərdiyinə görə dövlət tərəfindən üç medalla təltif edilmişdir. Ağır itkidir, sağalmaz bir yaradır, bunu hər kəs başa düşür. Amma yeganə təsəlli o ola bilər ki, canını Vətən uğrunda fəda etdi. Onun və onun kimi övladlarımızın qəhrəmanlığı nəticəsində biz işğala son qoyduq.**

DAVAMI SƏHİFƏ: 2-DƏ

## "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb

**Mayın 4-də Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təşkil olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Tədbir Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyasının xor kollektivinin ifasında Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə çıxış edən **Baş nazirin müavini Əli Əhmədov** layihənin əhəmiyyətini vurğulayıb. Ə.Əhmədov gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib.



**Təhsil naziri Emin Əmrullayev** isə Azərbaycan təhsilinin və elminin inkişafında Ümummilli liderin tarixi xidmətləri olduğunu vurğulayıb.

**Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edib. Deyib ki, biz bu gün çox mühüm bir tədbirə toplaşmışıq. Bu bir həqiqətdir ki, gənclik millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcudluğu üçün sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır.**

DAVAMI SƏHİFƏ: 3-DƏ

## İkinci Dünya müharibəsi iştirakçılarına və digər müvafiq şəxslərə birdəfəlik maddi yardımlar ödənilib

**Prezident İlham Əliyevin 2022-ci il aprelin 19-da imzaladığı Sərəncamın icrası olaraq, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin müharibədə iştirak edən 81 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik maddi yardım ödəyib.**

**Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Sərəncamla, həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına, ümumən 4233 nəfərin hər birinə də 750 manat məbləğində birdəfəlik maddi yardımın ödənişi həyata keçirilib.**

**Sərəncam çərçivəsində ümumilikdə 4314 nəfər Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına birdəfəlik maddi yardımla təmin edilib.**

## *Rusiyada çalışan hansı həmvətənlərimiz pensiya hüququna malik olacaq*

BAX SƏHİFƏ: 6

## Səttar Möhbalıyev:

*"Xüsusi təyinatlılar şanlı hərb tariximizdə böyük bir məktəbin əsasını qoydular"*

BAX SƏHİFƏ: 3

## Hökumətimiz sahibkarlığın daha da aktivləşməsi üçün nə kimi tədbirlər görür?

BAX SƏHİFƏ: 6

## Himayəyə götürdükləri ailələrdə oldular

BAX SƏHİFƏ: 7

## Muzey işçilərinə mükafatlar verildi

BAX SƏHİFƏ: 7

## Fizika İnstitutunun əməkdaşları gəzintidə olublar

BAX SƏHİFƏ: 3

## Üzvlərimizin əməyinin ləyaqətlə dəyərləndirilməsinə nail olmalıyıq

BAX SƏHİFƏ: 5

## *Vətəndaşlara 200 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb*

BAX SƏHİFƏ: 6

## *28 Aprel işğal, çevriliş, yoxsa inqilab?*

BAX SƏHİFƏ: 5




BAX SƏHİFƏ: 8

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

## Beynəlxalq

*İş yerlərində ölüm hallarının qarşısının alınması*

BAX SƏHİFƏ: 7

*"Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə keçirilən respublika müsabiqəsinin* 2021-ci il üzrə yekunları haqqında

BAX SƏHİFƏ: 4

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı olub



əvvəli səhifə 1-də

***Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur. Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib. Amma İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı.***

Hər bir şəhidin xatirəsi, əlbəttə, onların yaxınlarının və bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayır və yaşayacaq. Keçən il sentyabrın 27-də - Anım Günündə biz o Anım yürüşünü sanki şəhidlərlə birlikdə etdik, onların şəkilləri ilə. Sonra o şəkillər onların ailələrinə təqdim edilmişdir. Yeganə təsəlli o ola bilər, başqa təsəlli ola bilməz.

Əlbəttə, biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur. Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu, yenə də bizim borcumuzdur. Əsas təsəlli odur ki, o, əbədiyyətə qovuşub, şəhadət zirvəsinə qovuşub. Bu dünyada heç kim əbədi qalmayacaq, hamımız gec-tez haqq dünyasına qovuşacağıq. Əlbəttə ki, gənc yaşında həyatdan getmək böyük faciədir, ancaq nə deyə bilərik. Yeganə təsəlli odur ki, o, Vətən uğrunda döyüşüb, vuruşub, həlak olub və eyni zamanda, onun qanı yerdə qalmayıb. O, oktyabrın 19-da rəhmətə getmişdir. Artıq Füzuli şəhəri işğaldan azad edilmişdir. Ondan sonra onun yoldaşları müzəffər yürüşünü axıra qədər davam etdirərək bayrağımızı Şuşada sancdılar, düşməni qovduq və haqq-ədaləti bərpa etdik.

Sizin üçün əlbəttə ki, çox ağırdır, bu itki ilə heç cür barışmaq mümkün deyil. Vaxt da bu yaranı sağaltmayacaq. Amma yenə də onun xatirəsi, onun qəhrəmanlığı daim yaşayacaq. Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları şəhidlərimizlə fəxr edirlər. Onlar bizim üçün qürur mənbəyidir və bu, Azərbaycan xalqı durduqca əbədi olacaq. Biz onların xatirəsini əbədi yaşadacağıq. Onların qəhrəmanlığı heç vaxt bizim yaddaşımızdan, sonrakı nəsillərin ürəyindən silinməyəcək. Şəhidlər ölmür, biz bunu artıq dəfələrlə demişik, onlar bizimlədir. Çünki onların xatirəsi yaşayır, Mahirin övladı yaşayır. Əminəm ki, atasına layiq böyüyəcək. Sadəcə olaraq, onun böyüməsi, onun atası kimi qəhrəman olması sizin üçün bir təsəlli ola bilər.

**Yəni, o, həyatda övladını, gənc həyat yoldaşını, qardaşını, anasını qoyub getdi. Bilirsiniz, müharibədən sonra şəhid ailələri ilə, veteranlarla, qazilərlə çoxsaylı görüşlərim olub. Hər bir görüş bir daha xalqımızın böyüklüyünü göstərir. Çünki öz oğlunu, həyat yoldaşını, qardaşını itirmək böyük faciədir. Ancaq bu, xalqımızın iradəsini sarsıtmadı. Biz Mahir kimi qəhrəmanlar hesabına bundan sonra qəhrəman və müzəffər xalq kimi əbədi yaşayacağıq. Yenə də deyirəm, biz Birinci Qarabağ müharibəsini də heç vaxt unutmamalıyıq, şəhidləri unutmamalıyıq. O vaxt onlar şəhid oldular, amma torpaqlar da getdi. Bu dəfə şəhid oldular, amma torpaqlar qayıtdı. Fərq budur və təsəlli bu ola bilər. Əlbəttə, yaxın, doğma adamın itirilməsi yarası heç vaxt sağalmayacaq. Amma həyat davam edir və davam edəcək.**

İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Bir daha demək istəyirəm, həm Aprel döyüşləri zamanı, həm İkinci Qarabağ müharibəsində Mahir əsl vətənpərvərlik göstərmişdir. İndi onun xatirəsini yaşatmaq, onun övladını dəyərli vətəndaş kimi böyütmək yəqin ki, sizin üçün əsas məsələdir. Dövlət üçün də əsas məsələdir. Dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək. Bu haqda çox danışmaq istəməzdim. Bu, bizim borcumuzdur və sizin həyatınız, yaşayışınız daim diqqət mərkəzində olacaqdır.

**Şəhid Mahirin qardaşı Habil Məmmədov:** Çox sağ olun, cənab Prezident, bu müqəddəs gündə bizi ziyarət edirsiniz. Şəhid ailələrinə, qazilərə həmişə diqqət və qayğı göstərirsiniz. Sizə öz ailəmiz adından da təşəkkürümüzü bildiririk. Bu gözəl mənzilə görə də çox sağ olun. Mehriban xanım, Siz də çox sağ olun. Allah razı olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Oğlunuzun neçə yaşı var? ...

**Şəhid Mahirin anası Timziyə Məmmədova:** Bilirsiniz, oğlu sentyabrın 21-də doğulub, 27-si müharibə başladı.

**Birinci xanım Mehriban Əliyeva:** Sentyabrda doğulub...

**Timziyə Məmmədova:** Heç görə bilmədi, birinci övladıdır, bir az gec evləndi.

**Birinci xanım Mehriban Əliyeva:** Allah saxlasın, adı nədir?

**Timziyə Məmmədova:** Babasının adıdır, Səlim. İndi şəhidlərimizin ruhu şaddır ki, bizim torpaqlarımız alınıb Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Ruhları həmişə şad olacaq. Bizim hamımızın borcu idi və yenə də deyirəm, onun qanını biz döyüş meydanında aldıq, haqq işimizi sonuna qədər apardıq və Qələbəni təmin etdik. Mahirin balaca balası böyüyəndə, əlbəttə, atası ilə ömür boyu həm fəxr edəcək, həm də əminəm ki, ömür boyu Azərbaycan xalqı həmişə ona qayğı göstərəcək, hörmət edəcək, çünki o, şəhidin övladıdır.

**Timziyə Məmmədova:** Özü də atası ilə qürur duyacaq, düzdür.

**Habil Məmmədov:** Tez-tez məzarının üstünə aparıb gətiririk.

**Birinci xanım Mehriban Əliyeva:** Qələbə parkında hər bir şəhidin adı yazılıb.

**Prezident İlham Əliyev:** Hər birinin, hər birinin. Həm də Zəfər muzeyi yaradılacaq. Zəfər parkı Bakının ən möhtəşəm yerlərinin birində, bəlkə də birincisində - Dənizkənarı bulvarın önündədir. Orada böyük xatirə kompleksi inşa ediləcək. İşlərə yaxın zamanlarda start veriləcək. Hər şəhidin adı orada həkk olunacaq. Azad edilmiş bütün şəhərlərdə, hər bir şəhərdə Zəfər muzeyi, İşğal muzeyi yaradılacaq. Yəni, bütün şəhidlərimizin adı əbədi yaşayacaq. O sevinci onlar bizə bəxş etdilər.

**Timziyə Məmmədova:** Mahir özü də çox yaxşı oğul olub. Öz işini də çox sevirdi, xəritəçəkən olub. İşini çox sevirdi. Allah rəhmət eləsin bütün şəhidlərə.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Habil Məmmədov:** Cənab Prezident, biz də Sizinlə fəxr edirik. Nə yaxşı ki, xalqımızın, dövlətimizin Sizin kimi Prezidenti var. Allah Sizə cansağlığı versin. Çox sağ olun hər bir şəraitə görə. Diqqət, qayğı göstərdiyinizə görə çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Timziyə Məmmədova:** Sizin tapşırığınızla biz şəhid ailələrinə yaxşı baxırlar, qiymət verirlər. Yaxşıyıq, hər şey yaxşıdır. Narazı deyilik.

**Habil Məmmədov:** Vaxtlı-vaxtında maraqlanırlar.

**Prezident İlham Əliyev:** Bəli, mən bütün dövlət qurumlarına göstəriş vermişəm, daim şəhid ailələri diqqətlə əhatə olunsunlar.

**Timziyə Məmmədova:** Qayğı göstərilir.

**Prezident İlham Əliyev:** Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında, - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur.

**Bizim əsas borcumuz erməniləri torpaqlarımızdan qovmaq idi və Mahir kimi övladlarımız buna nail oldular. İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var. Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Məşğulluqla bağlı. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək.**

**Habil Məmmədov:** Mənzil də çox gözəldir, cənab Prezident.

**Şəhid Mahirin həyat yoldaşı Günel Məmmədova:** Mənzilə görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Yaxşıdır, bura şəhərcikdir, bağça da var, məktəb də yaxındadır.

**Habil Məmmədov:** Şəraiti çox gözəldir.

**Prezident İlham Əliyev:** Bilirsiniz, bu evlər məcburi köçkünlər üçün inşa edilmişdi. İşğal dövründə məcburi köçkünləri yerləşdirmək üçün, normal şərait yaratmaq üçün böyük işlər görüldü və belə gözəl şəhərciklər yaradıldı. Amma müharibədən sonra mən qərar qəbul etdim, onlar üçün nəzərdə tutulan yerləri biz şəhid ailələrinə təqdim edək ki, onlar çox vaxt gözləmədən tezliklə bu mənzillərlə təmin olunsunlar. Çünki hələ də, - onu da deməliyəm, - Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin bəziləri evlərlə təmin edilməyib. Düzdür, 12 min 500 mənzil verilib, ancaq hələ də növbədə duranlar var. Ona görə mən dedim ki, birincisi, məcburi köçkünlər üçün biz artıq Qarabağda, Zəngəzurda evlər tikməyə başlamışıq. Onlar orada yaşamalıdırlar. İkincisi, tezliklə şəhid ailələri, yaralı olan hərbçilərimizin problemlərinin həlli üçün bu gözəl evləri biz şəhid ailələrinə təqdim edək. Keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Bu mənzillərdə yaşamaq üçün bütün şərait var. Amma ondan sonra məşğulluqla bağlı, - mən bilirəm ki, siz işləyirsiniz, - pensiyalarla, təqaüdlə bağlı bütün bu məsələlər, həmçinin şəhidlərin yaxınları daim diqqət mərkəzində olmalıdırlar ki, sizin və sizin kimi şəhid ailələrinin həyatında heç bir problem olmasın. Mən Prezident kimi bütün dövlət qurumlarına bunu tapşırmışam, bu gün də mənim sözlərimi eşidirlər. Bu, bizim borcumuzdur.

**Ailə üzvləri:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib - hər birimiz, o cümlədən Mahir. Onu irəliyə aparan məhz Vətən sevgisi olub, bu ədalətsizliklə barışmazlığı olub. Canını fəda edib, amma onun kimi övladlarımız xalqımızın ləyaqətini bərpa etdilər. Bu, qələbə qədər vacib məsələdir, gələcək nəsillərin yetişməsi və tərbiyəsi üçün əvəzolunmaz amildir. Çünki biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.**

**Timziyə Məmmədova:** İndi başımız ucadır.

**Prezident İlham Əliyev:** Bəli, başımız ucadır, əbədi belə olacaq. Bir daha demək istəyirəm ki, Mahirlə, onun kimi şəhidlərlə biz əbədi fəxr edirik və edəcəyik.

**Habil Məmmədov:** Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Arzulayıram ki, dövlət tərəfindən sizə yaradılan bu şərait bundan sonra acınızı nisbətən azalda bilsin.

**Habil Məmmədov:** Düzdür, bizim üçün təsəllidir, cənab Prezident. Sizinlə görüşmək də çox xoş oldu. Çox sağ olun, hər bir şəraitə görə.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Ailə üzvləri:** Təşəkkür edirik. Çox sağ olun.



# Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan sərf etdi

**Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.**

Onun keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.

**Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.**

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı.

1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa etmiş ölkəmiz az keçmədi ki, daha bir təhlükə ilə üz-üzə qaldı. Mənfur qonşularımızın torpaqlarımıza soxulması, ölkədə isə xaos və anarxiyanın hökm sürməsi, idarəçiliyin yox vəziyyətində olması dövlətçiliyimiz üçün ciddi bir təhdidə çevrilmişdir.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırdı. Xalqımız inanırdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər.

**Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının çağırışına səs verən Heydər Əliyev 1993-cü ildə ölkə rəhbərliyinə qayıtdı. Müstəqil Azərbaycan Respublikasını düşdüyü bu ağır vəziyyətdən xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. İlk gündən müdrik rəhbər xalqa arxalandı, xalq da ona dəstək verdi və onun ətrafında həmrəylik nümayiş etdirdi. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirildi. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.**

Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan sərf etdi. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Hər şeydən əvvəl Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır.

Tarix boyu öz məkrli niyyətlərindən əl çəkməyən ermənilər müstəqilliyini yenicə qazanmış xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar. 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu.

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və ölkəmizin İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Bu, Rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən Qarabağda başladığı və 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycan xalqına bu tarixi Zəfəri qazandıran əsgərlərimiz Ulu öndər Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetişdirdiyi gənclərdir.**

**Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni zirvələr fəth edəcəkdir.**

"Azərbaycanın hər bir uğurunun arxasında Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi möhkəm təməllər dayanır. Ulu Öndərin xalqımızın rifahı, dövlətimizin inkişafı, Vətənimizin qorunması üçün atdığı bütün addımlar Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilərək öz hədəfinə çatmış oldu. 1999-cu ildə Azərbaycan Ordusunun ən çevik və peşəkar döyüş qabiliyyətinə malik Xüsusi Təyinatlı Qüvvələrinin yaradılması və onların hərb tariximizdə oynadığı rol Heydər Əliyevin nə qədər uzaqgörən və dahi şəxsiyyət olduğunu bir daha ortaya qoyur".




# Səttar Möhbalıyev:
## "Xüsusi təyinatlılar şanlı hərb tariximizdə böyük bir məktəbin əsasını qoydular"

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasını tarixi hadisə adlandıran S.Möhbalıyev bildirib ki, 2016-cı ilin Aprel döyüşləri ordumuzun bu bölməsinin gücünü, peşəkarlığını, yüksək döyüş ruhunu işğalçı Ermənistana, onun havadarlarına, həmçinin bütün dünyaya nümayiş etdirdi. Həmin döyüşlərdə böyük qəhrəmanlıq göstərən xüsusi təyinatlılar ordumuzun digər bölmələri ilə birlikdə düşmənin dərsini layiqincə verdilər.

**"Dövlətimiz tərəfindən Xüsusi Təyinatlı Qüvvələrin dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlarla, döyüş vasitələri və texnikalarla təchiz edilməsi üçün bütün imkanlar yaradılır. 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsi xüsusi təyinatlılarımızın qəhrəmanlıq salnaməsidir. Onların nümayiş etdirdiyi yüksək döyüş qabiliyyəti bütün dünyaya səs saldı. Səhra, dağ, qaya, isti, soyuq demədən, iqlimin və relyefin hər cür sərt üzünə hazır olan Xüsusi Təyinatlı Qüvvələrimiz cəmi 44 günə düşmənin dizini yerə qoydu. Hər gün yeni şəhərləri, kəndləri, qəsəbələri azad etməklə xalqımıza böyük sevinc bəxş edirdilər. Şuşa əməliyyatı isə onların peşəkarlığının və yüksək döyüş qabiliyyətinin təntənəsi oldu. Onlar dağları aşaraq, qayalardan dırmanaraq Şuşaya qalxdılar, yüngül silahlarla, əlbəyaxa döyüşlə, şəhərin tarixi görkəminə zərər verməməklə, mədəniyyət paytaxtımızı azad etdilər. Bir sözlə, onlar Qarabağ dastanının müəllifi oldular və göstərdikləri qəhrəmanlıqlarla şanlı tariximizdə böyük bir məktəbin əsasını qoydular: Vətəni bütün qəlbi ilə sevmək, hər zaman onun müdafiəsinə hazır olmaq, bu yolda heç nədən qorxmamaq və çəkinməmək. İnanırıq ki, xalqımızın gələcək nəsilləri bu məktəbi dərindən öyrənəcək və bundan layiqincə bəhrələnəcəklər", - S.Möhbalıyev bildirib.**

Deputat qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə keçirilən tədbirdə xüsusi təyinatlıların peşəkarlığından, yüksək döyüş hazırlığından, vətənpərvərliklərindən söz açaraq, onlarla fəxr etdiyini bildirdi. Xüsusi təyinatlıların sayının İkinci Qarabağ müharibəsindən sonra iki dəfə artırılması onu deməyə imkan verir ki, ölkəmiz müdafiə məqsədilə öz hərbi qüdrətini artırmaqda davam edəcək.

**"Bu gün Ermənistanda Azərbaycana qarşı ərazi iddialarından hələ də əl çəkməyən, revanşist düşüncə ilə yaşayan insanlar anlamalıdırlar ki, onları hansı tale gözləyir. Bunun üçün o qədər də uzağa getmək lazım deyil, onların 44 günlük Vətən müharibəsində döyüş meydanından qaçan erməni əsgərlərini xatırlamaları kifayətdir. Əminik ki, xalqımız xüsusi təyinatlıların qəhrəmanlıqlarını heç zaman unutmayacaq, həmişə böyük fəxarətlə xatırlayacaq", - S.Möhbalıyev bildirib.**

## *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

Mən Rabitə və Nəqliyyat Nazirliyi ( indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) "Azərpoçt" MMC-nin 3 saylı poçt filialında 2004-2016-cı illərdə müxtəlif vəzifələrdə işləmişəm. Hazırda təqaüddəyəm.

**AHİK-in təqaüdçülərə olan diqqət və qayğısını, hər bir müraciətimizə həssaslıqla yanaşıldığını xüsusi olaraq qeyd etmək istərdim. Belə ki, bu diqqətin nəticəsi olaraq mən aprelin 11-dən 25-dək "Bilgəh" Kardioloji sanatoriyasında müalicə olunmuşam. Sanatoriyada olduğum zaman orada müalicə kursu keçənlərin çox hissəsi təqaüdçülər idi. Ona görə də mənim bu minnətdarlığımı respublikamızın bütün təqaüdçüləri adından qəbul edə bilərsiniz. Yaradılan bu gözəl şəraitə görə, Sizə və kollektivinizə dərin hörmətlə təşəkkürümü bildirirəm. Allah Sizə cansağlığı və uzun ömür nəsib etsin.**

**Oruc İSMAYILOV,**
**təqaüdçü, Nərimanov Rayon Ağsaqqallar Şurasının üzvü**

# SEMİNAR-MÜŞAVİRƏ





**Aprelin 28-də Naxçıvan Muxtar Respublikası (MR) Həmkarlar İttifaqları Şurasında 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar seminar-müşavirə keçirilib.**

Müşavirədə çıxış edənlər Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli, Tikinti-Memarlıq Kommunal İctimai Xidmət Müəssisələri İşçiləri Həmkarlar İttifaqı Naxçıvan MR Komitəsinin sədri Ceyhun Məmmədov, Naxçıvan MR Dövlət Energetika Xidmətinin İdarə aparatı və Yüksəkgərginlikli Elektrik Şəbəkəsi Həmkarlar İttifaqı Komitəsinin sədri Miryunis Seyidov, Naxçıvan MR Həmkarlar İttifaqları Şurasının texniki əmək müfəttişi Hüseyn Quliyev vurğulayıblar ki, təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, həmçinin işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması istiqamətində tədbirlərin icrası daim diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikada işçilərin həyatı və sağlamlığına təhlükə yarada biləcək hadisələrin qarşısının alınması üçün profilaktik tədbirlər görülür, tikinti aparılan obyektlərdə işçilər üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, onlar peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilirlər. Bildirilib ki, görülən işlərlə yanaşı, əməyin mühafizəsi istiqamətində geniş maarifləndirmə işləri də aparılır.

**Seminarın sonunda bildirilmişdir ki, Naxçıvan MR Həmkarlar İttifaqları Şurası muxtar respublikada insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edən əməyin mühafizəsinin təşkilinə bundan sonra da xüsusi diqqət yetirəcəkdir.**

# Fizika İnstitutunun əməkdaşları gəzintidə olublar




**AMEA Fizika İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə Ramazan bayramı münasibətilə 40 nəfər əməkdaşın Balakənə ("Qubek Hotel" 3 gecə/4 gün), o cümlədən Şəki, Qax, Zaqatala şəhərlərinə gəzintisi təşkil olunub.**

İnstitutun əməkdaşları onların istirahətini yüksək səviyyədə təşkil etdiyi üçün "Qubek Hotel" in rəhbərliyinə və kollektivinə təşəkkür ediblər.

# "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb

əvvəli səhifə 1-də




**İstedadlı şagird və tələbələrin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi Azərbaycanda hər zaman diqqət mərkəzində olmuş, bu vacib iş prioritet istiqamətlərdən biri kimi seçilmiş və bu istiqamətdə ciddi addımlar atılmışdır.**

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra görkəmli dövlət xadimi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin respublikamızda siyasi rəhbərliyə qayıdışı ilə milli-mənəvi dəyərlərin dirçəlişinə, iqtisadiyyatın, sosial sahələrin inkişafına güclü stimul verilmiş, bununla yanaşı, ölkənin təhsil sisteminin yenidən qurulmasına, qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiya olunmasına geniş imkanlar açılmış, istedadlı uşaq və gənclərə hər zaman diqqət və qayğının artırılması ölkə Konstitusiyasında təsbit edilərək təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.



**Ümummilli lider hər zaman təhsilin inkişafını prioritet sahə kimi elan edir və deyirdi: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".**

Heydər Əliyev hələ sovetlər dövründə Azərbaycana rəhbərlik edərkən təhsil məsələsini daim diqqət mərkəzində saxlayaraq bu sahəyə ciddi fikir verirdi.

Təsadüfi deyil ki, 70-80-ci illərdə Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda 5 yeni ali təhsil müəssisəsi açıldı və ali təhsil alanların sayı 70 mindən 100 minə çatdırıldı.

Həmçinin bu illərdə hər il 800-900 nəfər Azərbaycan gənci SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrində təhsil almağa göndərildi.

Ümummilli liderin təhsillə bağlı siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev və Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən bu gün uğurla davam etdirilir.

**Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin tərkib hissəsi olaraq son illərdə təhsil sahəsinə diqqət və qayğı göstərilməsi baxımından ciddi addımlar atılmışdır. Yeni tikilən, hər cür şəraiti olan müasir məktəblər, tədris müəssisələri, müasir maddi-texniki bazalarla təminat bunlara əyani sübutdur.**

S.Möhbalıyev bir daha xatırladı ki, istedad qayğı tələb edir. İstedadlı şagirdlərimizə göstərilən qayğı hər bir fərdin bacarıq və biliklərinin aşkara çıxarılmasına xidmət etməlidir. İstedadın müəyyən edilib üzə çıxarılmasına və onlarla sistemli işin aparılmasına təkan verən məktəbdir. Məktəb hər bir şagirdin inkişafı, gələcəyinin müəyyənləşdirilməsi üçün zəruri bir məkandır. Bu məkan hər bir şagirdin potensialının üzə çıxarılması yolunda çox işlər görür.

**Gənc istedadların üzə çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ilə bağlı, təhsil ictimaiyyəti olaraq, biz də belə gənclərə diqqət və qayğı göstərməli, maddi və mənəvi dəstəyimizi əsirgəməməliyik. Ulu öndər, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təşkil olunan ən yaxşı təqdimat müsabiqəsi də şagirdlərin istedadlarının üzə çıxarılması və onların stimullaşdırılması üçün böyük əhəmiyyət kəsb edir.**

Biz üçüncü ildir ki, pandemiya ilə əlaqədar bu müsabiqəni onlayn şəkildə, şagirdlərin hazırladığı videoroliklərə baxmaqla onların təqdimatlarını qiymətləndiririk.

Hesab edirəm ki, formatından asılı olmayaraq, belə bir müsabiqənin təşkil edilməsi Ulu öndərin həyat və fəaliyyətinin şagirdlər arasında təbliği baxımından çox əhəmiyyətlidir. Şagirdlərimiz Ulu öndərin Azərbaycan dövlətçiliyindəki xidmətlərini, onun xalqımıza bəxş etdiyi bugünkü gözəl həyatı anır, həm də öz istedadlarını ortaya qoymuş olurlar.

**AHİK sədri müsbət hal kimi qeyd etdi ki, müsabiqədə Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı, demək olar ki, bütün sahələr əhatə olunur. Şagirdlərin təqdim etdikləri mövzular arasında Heydər Əliyevin Qarabağın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı fəaliyyəti, dövlətçilik və idarəçilik, müstəqilliyimizin möhkəmləndirilməsi, təhsilimizin, gənclərimizin inkişafı, azərbaycançılıq məfkurəsinin, Azərbaycan dilinin inkişaf etdirilməsi kimi çox mühüm mövzular vardır.**

Artıq bir neçə ildir ki, təşkil edilən bu müsabiqə müsbət bir ənənəyə çevrilib və bundan sonra da davam etdirilməlidir.

Əvvəlki illərdə olduğu kimi, bu il də istedadlı şagirdlərimiz hər mövzu ilə bağlı çox gözəl təqdimatlarla çıxış ediblər.

Mən müsabiqəyə qatılmış və adını qaliblər sırasına yazmış hər bir şagirdi, onların valideynlərini, müəllimlərini təbrik edir, gələcək təhsillərində onlara yeni-yeni uğurlar arzulayıram.

**Mərasimdə I yerə layiq görülmüş şagirdin təqdimatı nümayiş olunub.**

**Tədbirin bədii hissəsində musiqi əsərləri səsləndirilib.**

Daha sonra müsabiqə qaliblərinə diplomlar və qiymətli hədiyyələr təqdim edilib.

"Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, 5 nəfər I, 10 nəfər II, 15 nəfər III dərəcəli diplomla, 20 nəfər isə tərifnamə ilə təltif olunub.

**Qeyd edək ki, müsabiqə ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunub.**

# Qarabağ qazisi qalib gəldi



**İsmayıllı rayonunun Uşaq və Gənclər İdman Məktəbində (UGİM) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təhsil müəssisələrində çalışan şahmat həvəskarları arasında yarış təşkil olunmuşdur. Əvvəlki illərdən fərqli olaraq bu yarışlara Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (TİAHİ) İsmayıllı Rayon Komitəsi ilə yanaşı, təşkilatçı qismində rayon gənclər və idman idarəsi və YAP Rayon Təşkilatı da qatıldı.**

Tədbirin açılış mərasimində çıxış edənlər bildirdilər ki, Azərbaycanda şahmatın idman növü kimi inkişafı və kütləviləşməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Şahmat insanı zehni cəhətdən kamilləşdirən idman növüdür, - deyən Ümummilli lider ölkəmizə rəhbərliyi dövründə şahmatın inkişafını daim diqqətdə saxlamış, gənclərin şahmatla məşğul olması üçün hərtərəfli şərait yaratmışdır. Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət idman və gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir.

Açılış mərasimdən sonra iştirakçılar arasında püşk atıldı və birinciliyə start verildi. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Birinci Qarabağ müharibəsi qazisi, UGİM-in dərnək rəhbəri Mikayıl Məmmədov I, rayon DYMH-nin əməkdaşı Cəbrayıl Hüseynli II, UGİM-nin məşqçi müəllimi Namiq Qasımov III yerləri tutdular. Mücü kənd ümumtəhsil orta məktəbin direktoru Ağabala Zülfüqarov isə həvəsləndirici mükafata layiq görüldü.

**Yarışda qalib gələn şahmat həvəskarları təşkilatçılar tərəfindən diplomlar və TİAHİ RK-nın pul mükafatları ilə mükafatlandırıldılar.**

# *“Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizi ilə keçirilən Respublika müsabiqəsinin* 2021-ci il üzrə yekunları haqqında

**AHİK-in İcraiyyə Komitəsi qeyd edir ki, İcraiyyə Komitəsinin 25 noyabr 2009-cu il (№ 6b. 32ə) tarixli qərarına əsasən, “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizinə həsr olunmuş “Sağlam və təhlükəsiz iş şəraiti yaratmaq sahəsində ilin ən yaxşı müəssisəsi - 2021” adı uğrunda keçirilən müsabiqədə 1960-dan artıq müəssisə və təşkilat iştirak etmişdir.**

**23 sahə həmkarlar ittifaqını təmsil edən 167 müəssisədən 48 qalib müəssisə və təşkilatın sənədləri mükafatlandırılma üçün AHİK-ə göndərilmişdir.**

2021-ci il ərzində 30191 işçini, o cümlədən 6322 qadın işçini təmsil edən 48 müəssisə və təşkilatda həmkarlar ittifaqı komitələri, əməyin mühafizəsi komissiyaları və ictimai müvəkillər nəzarət-profilaktika işini yüksək səviyyədə təşkil etmiş, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına, maşın və mexanizmlərin, avadanlıqların istismarı zamanı təhlükəsizlik texnikasının tələblərinə əməl olunmasına, işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair 244 yoxlama həyata keçirmişlər.

**Bunun nəticəsində həmkarlar ittifaqı komitələri tərəfindən təhlükəsizlik tələblərinə cavab verməyən, işçilərin həyatına və sağlamlığına təhlükə törədən 59 dəzgah, avadanlıq aşkar olunmuş və sahənin işinin dayandırılması barədə məsələ müəssisə müdiriyyətinin müzakirəsinə verilmişdir. Əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üçün kollektiv müqavilələrin əməyin mühafizəsi bölməsinə sosial məsələlərə aid 241 adda bənd əlavə edilməsinə nail olunmuşdur. Həmkarlar itttifaqı komitələrinin 143, əməyin mühafizəsi komissiyalarının 115 iclasının müzakirə mövzusu əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri olmuşdur.**

Bütün bu tədbirlər əməyin mühafizəsinin yaxşılaşdırılmasına ayrılan maliyyə vəsaitinin əvvəlki illə müqayisədə 58,68 %, həmin vəsaitin hər işçiyə düşən hissəsinin 66,61 % artırılmasına nail olunması ilə nəticələnmişdir.

**Təklif olunmuş tədbirlərin yerinə yetirilməsinə və maliyyə vəsaitlərinin istifadəsinə nəzarətin həyata keçirilməsi nəticəsində müəssisələrdə əmək şəraitinin və mühafizəsinin yaxşılaşdırılmasına yönəlmiş 298 tədbir həyata keçirilmiş, attestasiya olunmuş iş yerlərinin sayı 82 %-ə çatdırılmış, işçilərin 99,2 %-i tibbi müayinədən keçirilmişdir.**

İşçilər müəyyən olunmuş normalar daxilində ayaqqabı və digər fərdi mühafizə vasitələri ilə təmin olunmuşlar.

**Müsabiqə üzrə AHİK-in müvafiq komissiyasının 16 mart 2022-ci il tarixli iclasında irəli sürülmüş təkliflər nəzərə alınmaqla AHİK-in İcraiyyə Komitəsi qərara alır:**

**1. AHİK 30 aprel 2021-ci il № 15b.5 tarixli qərarına uyğun olaraq “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizinə həsr olunmuş “Sağlam və təhlükəsiz iş şəraiti yaratmaq sahəsində ilin ən yaxşı müəssisəsi - 2021” adı uğrunda Respublika müsabiqəsinin 2021-ci il üzrə qalibləri AHİK-in diplom və hədiyyələri ilə təltif edilsinlər (əlavə olunur).**

**2. AHİK-in Əməyin mühafizəsi şöbəsinə, Konfederasiyanın üzv təşkilatlarına əməyin mühafizəsi üzrə qanunvericiliyə və qaydalara riayət edilməsinə dair ictimai nəzarətin təşkilinin yaxşılaşdırılması işində həmkarlar ittifaqı komitələrinə lazımi köməkliyin göstərilməsi tapşırılsın.**

***3. Sahə həmkarlar ittifaqı respublika komitələrinə, federasiyalarına və birliklərinə tövsiyə olunsun ki, 2021-ci ilin qalibləri ilə yanaşı iştirak etmiş əmək müfəttişlərinin, kollektiv və təşkilatların həvəsləndirilməsi üçün tədbirlər görsünlər.***

**4. “Ülfət” qəzetinin redaksiyasına respublika müsabiqəsinin yekunlarının və qaliblərin təcrübəsinin işıqlandırılması tapşırılsın.**

**5. “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə 2022-ci ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizi ilə növbəti il üzrə Respublika müsabiqəsi elan edilsin və müsabiqə AHİK İcraiyyə Komitəsinin 25 noyabr 2009-cu il tarixli (pr.№ 6b.32ə) qərarı ilə təsdiq edilmiş vahid metodikaya uyğun həyata keçirilsin.**

**AHİK-in sədri**
**S.Möhbalıyev**

# “Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)” devizi ilə 2021-ci il üzrə keçirilmiş Respublika müsabiqəsində qalib gələn təşkilatların SİYAHISI

## I Aviasiya İşçiləri HİRK

**1. “SİLKWAY group”**
“Silk Way Airlines” şirkəti MMC

## II Avtonəqliyyat və Yol Təsərrüfat İşçiləri HİRK

**2. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**
“35 №-li Yol İstismarı” MMC
**3. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**
“15 №-li Xüsusi Təyinatlı Yol İstismarı” MMC
**4. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**
“3 №-li Yol İstismarı” MMC
**5. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**
“13 №-li Yol İstismarı” MMC

## III Bələdiyyə İşçiləri HİRK

**6. Abşeron rayonu, Aşağı Güzdək Bələdiyyəsi**

## IV “Baku Stil Kompani” MMC İşçiləri HİB

**7. ”Baku Steel Compani” Qapalı Səhmdar Cəmiyyəti**

## V Dəmiryolçuların Müstəqil HİRK

**8. ”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin**
İnfrastruktur Departamentinin Elektrik Təchizatı Xidmətinin 1 nömrəli Bakı Elektrik Sahəsi
**9. ”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin**
İnfrastruktur Departamentinin Yol Xidmətinin 13 nömrəli Yevlax Yol Sahəsi

## VI Dəniz Nəqliyyatı İşçiləri HİRK

**10. ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin**
Xəzər Dəniz Neft Donanması

## VII Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK

**11. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti 12 saylı ərazi Vergilər Baş İdarəsi

## VIII Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK

**12. ”Azərenerji”Açıq Səhmdar Cəmiyyətinin**
“Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti

## IX Gömrük İşçiləri Həmkarlar İB

**13. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin “Azərterminalkompleks” Birliyi

## X “Xidmət-İş” Həmkarlar İttifaqları Federasiyası

**14. “AZERTRANS LTD” Məhdud Məsuliyyətli Cəmiyyəti**

## XI “İnşaat-İş” Həmkarlar İttifaqı

**15. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Peşə Təhsili üzrə Dövlət Agentliyi
8 saylı Bakı Peşə Liseyi

## XII “Azərsu” Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı

**16. “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin**
Səbail Rayon Sukanal İdarəsi
**17. “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin**
Sumqayıt Sukanal İdarəsi
**18. ”Azərsu” Açıq Səhmdar Cəmiyyətinin**
8 nömrəli Regional Sukanal İdarəsi

## XIII “Kənd-Qida-İş” Həmkarlar İttifaqı Federasiyası

**19. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi**
Baytarlıq Elmi Tədqiqat İnstitutunun Baytarlıq Klinikası
**20. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin**
Astara Suvarma Sistemləri İdarəsi
**21. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin**
Tərtərçay Hidroqovşağının İstismarı İdarəsi
**22. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin**
Hidrogeoloji-Meliorativ Xidməti İdarəsi
**23. Teymur Əhmədov adına “AZNAR” Qapalı Səhmdar Cəmiyyəti**
**24. “Baku İnternational Tobacco” Məhdud Məsuliyyətli Cəmiyyət**
**25. “Azərsun Holdinq” Şirkətlər Qrupu**
“Bazarstore” Məhdud Məsuliyyətli Cəmiyyəti
**26. “Azərsun Holdinq” Şirkətlər Qrupu**
“Al Market” Məhdud Məsuliyyətli Cəmiyyət

## XIV Metal İşçiləri Hİ Federasiyası

**27. ”ALCO” Məhdud Məsuliyyətli Cəmiyyəti**

## XV Mədəniyyət İşçiləri HİRK

**28. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**
Bakı şəhər F. Əmirov adına 6 nömrəli Onbirillik İncəsənət Məktəbi
**29. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**
Bakı şəhəri, Səbail Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi

## XVI Naxçıvan Muxtar Respublikası Hİ Şurası

**30. Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti**

## XVII Neft və Qaz Sənayesi İşçiləri HİRK

**31. SOCAR “Neftqaztikinti” Tresti**
**32. ”BOS ŞELF” MMC**
**33. ”Bahar Energy Operatinq Company Limited” Şirkətinin**
Azərbaycan Respublikasında Nümayəndəliyi

## XVIII Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK

**34. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi**
“AzinTelecom” Məhdud Məsuliyyətli Cəmiyyəti
**35. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi**
“AzTelecom” Məhdud Məsuliyyətli Cəmiyyəti

## XIX Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK

**36. ”Xaçmaz Şərab” Açıq Səhmdar Cəmiyyəti**

## XX Səhiyyə İşçiləri HİRK

**37. Azərbaycan Respublikası İcbari . Tibbi Sığorta üzrə Dövlət Agentliyi**
“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” Publik Hüquqi Şəxs
“Lökbatan Tibb Mərkəzi” Publik Hüquqi Şəxs
**38. Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**
“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” Publik Hüquqi Şəxs
2 nömrəli Şəhər Poliklinikası

## XXI Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK

**39. Azərbaycan Respublikası Təbii Sərvətlər və Ekologiya Nazirliyi**
Azərbaycan Respublikası Təbii Sərvətlər və Ekologiya Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti

## XXII Təhsil İşçiləri Azad HİRK

**40. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Bakı Şəhəri üzrə Təhsil İdarəsi
181 nömrəli tam orta məktəb
**41. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Bakı Şəhəri üzrə Təhsil İdarəsi
Murad Hacıyev adına 116 nömrəli tam orta məktəb
**42. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Sumqayıt Şəhər Təhsil Şöbəsi
Təbiət Elmləri Təmayüllü Gimnaziya
**43. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Şirvan Şəhər Təhsil Şöbəsi
M.İsrayılov adına 18 nömrəli Təbiət, Humanitar, Təmayüllü Məktəb-Lisey
**44. Şəki Şəhər Qarışıq Tipli Uşaq Evi**
**45. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
İsmayıllı Rayon Təhsil Şöbəsi
Natiq Behdiyev adına İsmayıllı şəhər 6 nömrəli tam orta məktəb
**46. Azərbaycan Respublikası Təhsil Nazirliyi**
Salyan Rayon Təhsil Şöbəsi
Elxan Ağayev adına Arbatan kənd tam orta məktəb

## XXIII Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK

**47. ”Azərişıq” Açıq Səhmdar Cəmiyyəti**
Ağıllı Şəbəkələrin Baş İdarəetmə Mərkəzi Çağrı Mərkəzi
**48. Sumqayıt Şəhər İcra Hakimiyyəti**
Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi

# “Aqrar sahədə əməyin mühafizəsi”




**Aprelin 28-də Kənd Təsərrüfatı Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar “Aqrar sahədə əməyin mühafizəsi” mövzusunda konfrans keçirilib.**

Tədbiri giriş sözü ilə açan Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev bildirib ki, ölkədə çalışan işçi qüvvəsinin böyük hissəsi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olur, aqrar sahədə intensiv olaraq maşın və aqreqatlardan, pestisidlərdən, həmçinin digər aqrokimyəvi maddələrdən istifadə edildiyindən bu sahədə əməyin təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirilir.

AHİK-in sədr müavini Cavanşir Alxasov əməyin mühafizəsinin təşkili və təmini işində həmkarlar ittifaqlarının rolundan, ölkəmizdə bu sahədə görülən işlərdən, əməyin mühafizəsi sahəsində işəgötürənlərin və işçilərin üzərinə düşən vəzifələrdən bəhs edib. Onun sözlərinə görə, həmkarlar ittifaqlarının texniki əmək müfəttişləri əməyin mühafizəsi üzrə ictimai müvəkkillərlə birlikdə mütəmadi olaraq müəssisələrdə nəzarət-profilaktika işi aparır, iş yerlərində əmək şəraitinin yaxşılaşdırması istiqamətində ciddi fəaliyyət göstərirlər.

**Kənd Təsərrüfatı Nazirliyi İşçilərinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov çıxış edərək işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasının işəgötürən və bu sahəyə ictimai nəzarət funksiyasını həyata keçirən həmkarlar ittifaqının ən başlıca missiyalarından biri olduğunu diqqətə çatdırıb. O, əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması, ixtisaslarının artırılması və təcrübə mübadiləsinin aparılması işlərinin mütəmadi davam etdirilməsinin zəruri olduğunu qeyd edib. Əlavə edib ki, əsas istəyimiz üzvlərimizin təhlükəsiz mühitdə çalışmasıdır.**

Daha sonra sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasında fərqlənən Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumlarının rəhbərləri Fəxri diplomlarla təltif olunublar.

**Konfrans işini “Əməyin mühafizəsi sahəsində çağırışlar” və “Aqrar sahədə əməyin mühafizəsi” mövzularına həsr edilmiş panel müzakirələrlə davam edib.**

# Tamahımıza hakim olanlarımızı qorumağa qadirik

**“Azərsu” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və “Azərsu” Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Müqəddəs Ramazan bayramı ərəfəsində xeyirxahlıq aksiyası keçirmişlər. Bu təşkilatların vəsaiti hesabına hazırlanmış bayram sovqatlarının 69-u Vətən müharibəsində canını və sağlamlığını itirmiş igid oğullarımızın ailələri üçün nəzərdə tutulmuşdu. Respublika Komitəsinin və QSC-nin nümayəndələri əvvəlcədən qeydə alınmış siyahı üzrə ölkənin müxtəlif regionlarına getmiş, şəhid ailələri və qazilərlə görüşmüşlər. Onların qarşıdan gələn müqəddəs bayramlarını təbrik etmiş, sosial vəziyyətləri, istək və arzuları ilə maraqlanmışlar. Şəhid, qazi balalarını bağırlarına basmış, əzizləmiş, hər birinə valideyn qayğısı göstərmişlər. Ev sahibləri əziz gündə qapılarını açıb içəri girdiklərinə, gülərüzlə təbrik etdiklərinə görə qonaqlara təşəkkürlərini bildirmişlər.**





Xeyirxahlıq aksiyasının iştirakçıları bir neçə gündə Azərbaycanın ayrı-ayrı bölgələrində yaşayan 29 şəhid ailəsini və 40 qazini ziyarət etdilər. Vətən uğrunda fədakarlıqlarına, vətənpərvər oğul yetişdirdiklərinə görə şəhid ailələrinə və qazilərə minnətdarlıq əlaməti olaraq bayram sovqatı hədiyyə etdilər.

**Bayram ərəfəsində aztəminatlı ailə başçıları da diqqətdən kənarda qalmadı. “Azərsu”nun yerləşdiyi binanın akt zalına bu təbəqədən olan 345 nəfər işçi dəvət edildi. Dəvətlilər qarşısında çıxış edən Respublika Komitəsinin sədri Akif Məmmədov dedi ki, xalqımız müqəddəs kitabların nazil olduğu bu müqəddəs ayın imtahanından üzüağ çıxmaqdadır. Allahın lütf etdiyi oruclug günləri göstərdi ki, biz tamahdan uzaq xalqıq. Tamahımıza hakimik. Bir az geniş mənada götürsək, heç bir xalqın, tayfanın, toplumun sərvətində, torpağında gözümüz yoxdur. Amma bu ayda göstərdiyimiz iradə onu da deməyə əsas verir ki, olanlarımızı - yəni Allahın qismətimizə verdiyi Vətəni, digər sərvətləri qorumaqda nümayiş etdirdiyimiz iradəni heç kim qırmaq gücündə ola bilməz. Biz lazımi anda millət olaraq birləşməyi bacarırıq. Necə ki, Ramazan ayı bizi bir niyyət ətrafında birləşdirdi, eləcə də Vətən müharibəsində, düşmənin topuna, tüfənginə baxmayaraq, bir əlin barmaqları kimi “Dəmir yumruq” ətrafında birləşdik.**

Akif müəllim iştirakçılara “Qarşıdan gələn Ramazan bayramınız mübarək!” dedi. Xalqımıza əmin-amanlıq, Vətənimizə sülh arzuladı.

Sonra bütün iştirakçılara bayram sovqatları paylandı.

**Allah qəbul etsin!**

# Üzvlərimizin əməyinin ləyaqətlə dəyərləndirilməsinə nail olmalıyıq




**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Göyçay Rayon Komitəsinin təşkilatçılığı ilə “Pozitiv, təhlükəsiz və sağlam həyat mədəniyyəti üçün birgə fəaliyyət” devizi altında dəyirmi masa təşkil edilmişdir.**

28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş bu tədbirdən əvvəl rayonda fəaliyyət göstərən bir neçə müəssisədə texniki təhlükəsizlik qaydalarının təşkilinə baxış keçirildi.

Heydər Əliyev Mərkəzinin akt zalında baş tutan tədbirdə I və II Qarabağ müharibələrinin şəhidlərinin, o cümlədən Uşaq Musiqi Məktəbinin müəllimi şəhid Alim İbrahimovun xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Dəyirmi masada MİHİ Göyçay Rayon Komitəsinin sədri Nəriman Məlikov geniş məruzə ilə çıxış etdi. Dedi ki, ittifaq üzvlərimiz BƏT-in təklif etdiyi çağırışda əksini tapan tələbləri dəstəkləyir və işini bu tələblərə uyğun qurmağa çalışırlar. Qeyd etdi ki, əsas diqqətimiz layiqli və ədalətli, təhlükəsiz iş yeri, işçilərin sosial müdafiəsi, onlara hörmət və ləyaqətlə yanaşılmasına yönəldilib. Biz, həmkarlar ittifaqı olaraq, bu prinsipin pozulmamasına çalışaraq, MİHİ Rayon Komitəsinin tabe müəssisələrində, istisnasız olaraq hamımız, Hİ üzvlərinin əməyinin ləyaqətlə dəyərləndirilməsinə nail olmalıyıq.

Dəyirmi masada digər çıxışlar da dinlənildi.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Əmək Qanunvericiliyinin onların hüquq və mənafelərinin qorunmaları ilə bağlı maddələrindən nümunələrlə məlumatlandırıldılar.

**Sonda əmək kollektivlərində işçilərin iş yerlərində üzləşdikləri problemlər müzakirə edildi.**

**Tədbir sual-cavabla yekunlaşdı.**

**Nəriman MƏLİKOV,**
**MİHİ Göyçay Rayon Komitəsinin sədri**

# Ətraflı məlumat əldə etdilər



Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən 2022-ci ildə Ümumdünya Əməyin Mühafizəsi Gününün “Pozitiv, təhlükəsiz və sağlam həyat mədəniyyəti üçün birgə fəaliyyət” devizi altında qeyd edilməsi ilə əlaqədar rayon mərkəzi kitabxanasında seminar keçirilmişdir.

MİHİ Sabirabad Rayon Komitəsinin təşkilatçılığı ilə baş tutan seminar iştirakçılarına əməyin mühafizəsi, texniki təhlükəsizlik və yanğından mühafizə qaydaları haqqında ətraflı məlumat verilmiş, hər bir əməkdaşın bu sahədə müvafiq biliklərə malik olması və qəbul edilmiş ümumi qaydalara ciddi riayət edilməsi tövsiyə olunmuşdur.

# 28 Aprel

## işğal, çevriliş, yoxsa inqilab?



***Aprelin 28-i Rusiya bolşeviklərinin Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini (AXC) devirərək ölkəmizi işğal etdiyi gündür. 1920-ci ilin aprelin 28-də baş verən qanlı işğal müstəqillik tariximizə ən ağır, ən kədərli və hüznlü günlərdən biri kimi yazılıb. Bu tarix eyni zamanda 70 minlik rus ordusuna qarşı son damla qanına kimi vuruşmuş 350 azərbaycanlının qəhrəmanlığı kimi də yaddaşlara həkk olunub.***

Bu tarixi daha dərindən araşdırmaq, əslində həmin illərdə nələrin baş verdiyini öyrənmək üçün tarix üzrə fəlsəfə doktoru, Azərbaycan **Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan Sovet dövrü tarixi” şöbəsinin müdiri İlqar Niftəliyevlə** görüşüb bu barədə söhbət apardım.

İlqar müəllim dedi ki, hələ 1919-cu ilin sonundan başlayaraq Türkiyə azadlıq hərəkatının üzvləri olan Qarabəkir Paşa və Mustafa Kamal Atatürklə Moskva hökuməti arasında gizli danışıqlar gedirdi. Məqsəd Sovet Rusiyasının Anadoluda baş qaldıran Milli Azadlıq Hərəkatına hərbi yardım etməsi idi: “Amma burda belə bir məsələ var idi. Həm Sovet Rusiyası, həm də Anadoluda olan Milli Azadlıq hərəkatı üçün əsas düşmən Antanta ölkələri idi, xüsusən də Böyük Britaniya. Düşmənçiliyə rəğmən Böyük Britaniya ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında münasibətlər çox yaxın idi. Belə ki, 1920-ci il Paris Konfransında Böyük Britaniyanın Qafqazdakı nümayəndəsi Oliver Vordropun Azərbaycanın de-fakto tanınmasında böyük xidmətləri olub. Təbii ki, Rusiya - Türkiyə əlaqələrinin qurulmasında bu, bir maneəyə çevrilməzdi. Çünki birbaşa əlaqə ya Azərbaycan, ya Ermənistan vasitəsilə mümkün idi. Beləliklə, 1920-ci ilin yanvarından başlayaraq Sovet Rusiyasının xarici işlər komissarı Qeorqi Çiçerin ilə Azərbaycan xarici işlər naziri Fətəli Xan Xoyski arasında yazışmalar gedir. Həmin yazışmalarda Rusiya hökuməti Azərbaycan hökumətinə təzyiqlər edir. Onlar tələb edirdilər ki, Azərbaycan Sovet Rusiyası ilə birləşib Anton Denikinin ordusuna qarşı birgə mübarizə aparsın. Amma Azərbaycan hökuməti bunun Rusiyanın daxili işi olduğunu bildirir. Ancaq vəziyyət elə gətirdi ki, sovet ordusu Şimali Qafqazda könüllülər ordusunu məğlub edəndən sonra Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Hətta Paris Konfransında Azərbaycan nümayəndə heyəti sovet təhlükəsindən qorunmaq üçün dəfələrlə qərb dövlətləri qarşısında məsələ qoymuşdu. Amma böyük dövlətlərin bu məsələdə vahid bir fikri olmadığı üçün 1920-ci ilin aprelində AXC Sovet Rusiyası ilə təkbətək qaldı. O dövrdə Azərbaycanın təxminən 30 minlik ordusu var idi. Ermənistan cümhuriyyət dövrü boyunca da Azərbaycanın o bölgələrinə təcavüz etdiyi üçün həmin ordunun böyük bir hissəsi Qarabağda cəmləşmişdi. Buna görə də Azərbaycanın şimal sərhədləri, eyni zamanda Bakının özü də çox az qüvvə ilə (təxminən 2 minə yaxın) qorunurdu. Bundan istifadə edən Sovet Rusiyası çox sürətlə Dərbənd tərəfdən Bakı istiqamətində hərəkət edir. Sizə deyim ki, o dövrdə AXC parlamentinin özündə də bu məsələyə birmənalı münasibət yox idi. Sosialist fraksiyasının üzvləri olan Əliheydər Qarayev, Məhəmmədhəsən Hacınski Rusiya ilə əlaqələrin qurulmasının və qoşunların Azərbaycan vasitəsilə Anadoluya getməsinin tərəfdarı idilər. Amma Müsavat fraksiyasının rəhbəri Məmməd Əmin Rəsulzadə isə deyirdi ki, şimaldan gələn istənilən bir qüvvə Azərbaycan üçün düşmən bir qüvvədir, ona görə də biz onu Azərbaycan ərazisinə buraxa bilmərik. Çünki bir dəfə buraxsaq, daha heç vaxt onları burdan çıxarda bilməyəcəyik.



**Ancaq əfsuslar olsun ki, həmin o sol qüvvələrin fikirləri üstünlük təşkil edir və bir neçə maddədən ibarət qərar qəbul olunur. İlk maddə ondan ibarət idi ki, AXC rus qoşununun, Bakıda dayanmamaq şərtilə, Azərbaycan ərazisindən keçərək Anadoluya getməsinə icazə verməli idi. İkinci maddə hakimiyyətin müvəqqəti olaraq Azərbaycan kommunistlərinə verilməsi idi. Üçüncü və əsas maddə isə Azərbaycanın müstəqilliyinin saxlanılması idi. Bolşeviklər isə o dövrdə bu məsələyə “müstəqil sovet Azərbaycanı” donu geydirirdilər. Və çalışırdılar ki, bunu işğal kimi yox, yerli bolşeviklərin hakimiyyəti ələ alması səbəbindən onların Sovet Rusiyası ordusunu köməyə çağırmaqları kimi qələmə versinlər. Ancaq aprelin 27-də parlamentdə bu qərar qəbul olunanda artıq ondan əvvəl Qırmızı Ordu Azərbaycan sərhədlərini keçmişdi və sürətlə Bakı üzərinə hücum edirdi. Bakıda həmin vaxt Şirvan alayı və türklərdən ibarət bir hərbi hissə var idi. Onlar da gələn qoşuna qarşı heç bir müqavimət göstərmədilər. Düzdür, sərhədi qoruyan Quba alayı müəyyən qədər müqavimət göstərmişdi. Ancaq həmin vaxt ölkədə böyük bir təbliğat getmişdi ki, Qırmızı Ordu işğalçı ordu deyil. O, Azərbaycanın müstəqilliyinə son qoymaq üçün yox, məhz Anadoluya qardaşlarımızın köməyinə gedir. Azərbaycan əvvəldən ciddi bir müqavimət üçün hazırlıqsız idi. Ona görə də yerli hökumət bu hakimiyyəti heç bir qarşıdurmasız, heç bir qanlı müqavimətsiz təhvil vermişdi. Çünki onlara verilən vədlərə inanmışdı.**

Ümumiyyətlə, bu hadisələri müxtəlif formalarda adlandırmaq olar. Birincisi, bu, işğal idi. Sovet dövründə bu hadisə Azərbaycanda Sovet hakimiyyətinin qurulması kimi qeyd olunurdu. Ancaq həqiqət isə o idi ki, müstəqil bir dövlətin ərazisinə başqa bir dövlət öz ordusunu yeridərək işğal etmişdi. İkincisi, bu, çevriliş idi. Çünki ölkə daxilində kommunistlər zor gücü ilə qanuni hökuməti devirmişdilər. Üçüncüsü, bu, inqilab idi. Çünki Azərbaycanın bundan sonrakı inkişafı tamamilə yeni bir məcrada gedəcəkdi”.

Bəzi mənbələrdə bu hadisələrdə türk zabitlərinin də əlinin olduğu bildirilir. Bu, həqiqətdirmi?” sualını cavablandıran tarixçi bildirdi ki, Məmməd Əmin Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” əsərində göstərir ki, Bakıya daxil olan əsgərlər arasında türk zabitləri də var idi: “Hətta məlumdur ki, Xəlil Paşa Moskva ilə əlaqəsi olan bir şəxs idi. Onu da qeyd edim ki, M.K.Atatürk həmin ilin aprelin 26-da Leninə məktub yazır. Məktubda Atatürk öz üzərinə öhdəlik götürürdü ki, Azərbaycanın sovet dövlətlərinin sırasına daxil olmasına nail olacaq. Və Azərbaycan hökumətini razı salacaq ki, rus qoşunu Azərbaycandan keçməklə Antanta dövlətlərinə qarşı mübarizədə Anadoluya köməyə getsin”. Məktub ünvanına mayın axırında çatmışdı. O vaxta qədər artıq Sovet Rusiyası bu missiyanı həyata keçirmişdi.

**İ.Niftəliyev onu da qeyd etdi ki, həmin dövrdə Azərbaycan qoşununun çox hissəsinin Qarabağda cəmləşməsi əslində ermənilər tərəfindən qurulan bir plan idi. Hətta son illərdəki sənədlər də onu göstərir ki, Dağlıq Qarabağdakı ermənilərin 1920-ci il martın 22-də qiyam qaldırması əslində Şimali Qafqazda yerləşən bolşevik komandanlığı ilə əlaqəli bir hadisə idi: “Bunun haqqında biz artıq sənədlər də tapmışıq. Çox maraqlıdır ki, Ermənistanda çap olunan sənədlər toplusunda açıq şəkildə göstərilir ki, Bakıda hakimiyyətin dəyişilməsində Dağlıq Qarabağdan Şimali Qafqaza gedən emisarların da xidməti olub. Bunu ermənilər özləri etiraf edirlər. Yəni bu, bilərəkdən olmuşdu ki, ordunun böyük bir hissəsi məhz qərb sərhədlərində cəmləşsin və Bakı müdafiəsiz qalsın. Ümumiyyətlə, sizə deyim ki, 1920-ci il fevralın 11-də gizli şəkildə keçirilən qurultayda cümhuriyyətin devrilməsi və sovet hakimiyyətinin qurulması haqqında qərar artıq qəbul olunmuşdu. Və elə həmin qurultayda Azərbaycan Kommunist Partiyası yaradılmışdı”.**

Bəli, 71 illik işğal dövründən sonra ölkəmizin müstəqilliyini yenidən əldə etməsi bizi gözləyən ağır faciələrin qarşısını aldı. Lakin müstəqilliyimizi əldə etdikdən sonra da rus-erməni işbirliyi bitmədi. Üstündən neçə illər keçsə də, bu işbirliyin əziyyətlərini torpaqlarımızı işğaldan azad etdiyimiz müddətdə də, hətta bu gün də çəkməkdə davam edirik.

**Aliyə SƏMƏDOVA**

# Rusiyada çalışan hansı həmvətənlərimiz pensiya hüququna malik olacaq

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclası çərçivəsində "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Müqavilə" imzalanıb.**

Bu müqavilə əmək miqrantları kimi Rusiyada fəaliyyət göstərən Azərbaycan vətəndaşlarının pensiya və sığortalanma üzrə digər hüquqlarının tanınmasını təmin etmək məqsədi daşıyır. Beləliklə, Rusiyada çalışan Azərbaycan vətəndaşlarının oradakı sığorta stajı pensiya zamanı nəzərə alınacaq. Müqavilə respublikamızda mütəxəssislər tərəfindən ümumilikdə azərbaycanlı miqrantların xeyrinə işləyəcək addım kimi qiymətləndirilib.



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov bu müqaviləni uzun müddət müzakirə edilən pensiya kapitalının qarşılıqlı olaraq tanınması ilə bağlı əhəmiyyətli sənəd adlandırdı. "Məlumdur ki, hər iki ölkənin bir-birində əmək miqrantı kimi fəaliyyət göstərən vətəndaşları kifayət qədərdir. Azərbaycan vətəndaşlığını saxlamaqla, Rusiyada yaşayan və işləyən həmvətənlərimiz müqayisədə daha çoxdur. İndiyə kimi əmək miqrantları işlədikləri müddətdə əməkhaqlarından müəyyən sosial ödənişlər həyata keçirir, bu ödənişlərlə şəxsin müəyyən sığorta və pensiya kapitalında vəsait toplanırdı. Lakin ölkələrinə qayıtdıqdan sonra bu məbləğ onların pensiya təminatı hesablanarkən nəzərə alınmırdı", - deyə bildirdi.**

Millət vəkilinin dediyinə görə, yeni qaydalar imkan verəcək ki, həmin staj və kapital pensiya təminatı zamanı istifadə oluna bilsin. Məsələn, Rusiyada 20 il yaşamış və işləmiş, eyni zamanda sosial ödəniş etmiş azərbaycanlı əmək miqrantı vətəninə qayıtdıqdan sonra, ümumi pensiyası təyin olunan zaman, həm işlədiyi staj, həm də ödədiyi pensiya hesablanacaq. Eyni zamanda, qarşılıqlı olaraq, əmək miqrantlarının pensiyaya çıxan zaman daha çox pensiya almaq imkanı da mərhələli şəkildə öz həllini tapacaq.

**"Belə bir müqavilə 1999-cu ildə Rusiya Federasiyası və Azərbaycan hökuməti arasında imzalanmışdır. Azərbaycan parlamentində ratifikasiya olunsa da, Dövlət Duması bunu qəbul etməmişdi. Buna səbəb əslində rusiyalı işəgötürənlərin maraqlarını təmin etmək idi. Çünki ölkədə işçi qüvvəsi çatışmırdı. Buna görə də, ümumiyyətlə, Rusiyada əmək miqrantları, əcnəbi vətəndaşlığı olmayan şəxslər sığortalanmırdı, nəticədə orada işləyən əmək miqrantları heç bir yığım kapitalına malik olmurdular. Bu da işəgötürənləri ucuz işçi qüvvəsinə sahib olmağa stimullaşdırır və bir çox əlavə xərclərdən azad edirdi. Müqavilənin yenidən imzalanması göstərir ki, Rusiyada qanunvericiliyə dəyişiklik edilib və orada artıq əmək miqrantı kimi fəaliyyət göstərənlərdən də sığorta üçün müəyyən vəsait tutulacaq".** Bunu isə Vətəndaşların Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirdi. Dedi ki, Azərbaycanda işləyən bütün əmək miqrantları öz vətəndaşlarımız kimi sığorta növlərinə cəlb olunur. Amma qarşılıqlı müqavilə olmadığı üçün sığorta məbləği pensiya təminatı zamanı nəzərə alınmırdı.

S.Məmmədov əlavə etdi ki, Azərbaycanda icazəni işəgötürən özü, Rusiyada isə əmək miqrantı olan fərdin özü alır. Bu qanun birmənalı olaraq Rusiya Federal Miqrasiya Xidmətindən qeydiyyatdan keçmiş və icazə almış əmək miqrantlarına şamil olunacaq.

**O həmçinin qeyd etdi ki, bu qərar iki ölkə arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında müqavilə bağlanandan, qüvvəyə minəndən sonrakı dövrə şamil olunacaq. Çünki əvvəlki illərdə onsuz da yığım olmayıb. Pensiya təminatı haqqında aparılan islahatların tərkib hissəsi kimi, 23 ildən sonra yenidən bu məsələni gündəmə gətirib, həllinə nail olunması pensiya haqqında aparılan islahatların tərkib hissəsi kimi sevindirici haldır.**

**Əsli TELMANQIZI**

# Hökumətimiz sahibkarlığın daha da aktivləşməsi üçün nə kimi tədbirlər görür?



**Hazırda ölkədə aktual olan məsələlərdən biri də sahibkarlığın inkişafı ilə bağlıdır. Bu haqda vətəndaşlarımızı maraqlandıran sualları Milli Məclisin deputatı Elnur Allahverdiyevə ünvanladıq.**

***- Ərzaq təhlükəsizliyinin artıq qlobal xarakter daşıdığı indiki zamanda onun həlli yükünü təkcə hökumətin öz üzərinə götürməsi, təbii ki, çıxış yolu deyil və ya istənilən səmərəni verməyəcək. Mövcud şərait sahibkarların fəaliyyətinin güclənməsini, onların iqtisadiyyatın bütün sahələrində rolunun artmasını tələb edir. Dövrün bu tələbinə uyğun olaraq hökumətimiz sahibkarlığın daha da aktivləşməsi üçün hansı təsirli tədbirləri görür?***

- Hazırda dünyada həqiqətən də ərzaq təhlükəsizliyi sahəsində mümkün qıtlıq barədə müxtəlif qurumlar, beynəlxalq təşkilatın rəsmiləri, iqtisadçılar və siyasətçilər həyəcan təbili çalmağa başlayıblar. Bu, ilk növbədə iki aydan çoxdur davam edən Rusiya-Ukrayna müharibəsi və ondan doğan amillərlə bağlıdır. Rusiya iri buğda ixracatçısıdır. Ukraynanın da dünya bazarında, məsələn, qarğıdalı ixracatında öz rolu var. Bu vəziyyət, təbii ki, tək bizi deyil, bütün dünyanı narahat edir. Bu baxımdan, sizin qeyd etdiyiniz kimi, hökumətin sahibkarları aktivliyə səsləməsi ilə mümkün problemin aradan qaldırılması o qədər də inandırıcı görünmür. İlk növbədə qeyd etməliyəm ki, Azərbaycanda hələlik real təhlükə barədə hər hansı həyəcan yoxdur. Proses hökumətin nəzarətindədir, üstəlik, bir ictimai nəzarət də var ki, bu da vətəndaşdır. Vətəndaş bazara, marketə gedir və real vəziyyəti görür. Mən hökumət rəsmiləri ilə görüşürəm, söhbətlərimiz olur, heç bir narahatlığa əsas yoxdur. Hər həftə Nazirlər Kabineti sahibkarlarla, ölkəyə ərzaq idxal edən iş adamları ilə əlaqə saxlayır və real vəziyyəti öyrənir. Hər hansı istiqamətdə çatışmazlıq olarsa, təbii olaraq dövlət müdaxilə edəcək, sahibkara lazımi dəstəyi verəcək ki, bu sahədə hər hansı qıtlıq yaşanmasın. Yəni bu baxımdan dövlətlə özəl sektor sıx işbirliyi və əlaqədədirlər.

O ki qaldı sahibkarların aktivləşməsinə, təbii ki, burada da bazar amili var. Təklif-tələbat faktoru unudulmamalıdır. Dövlət sahibkarlara hər cür dəstək verir və bu dəstəyi ehtiyac yarandığı zaman daha da gücləndirəcək.

***- Məlumdur ki, məhsulların maya dəyəri xammalla bərabər onun tərkibində olan irili-xırdalı komponentlərin qiyməti ilə müəyyənləşir. Bizdə istehsal olunan məhsulların isə komponentlərinin böyük hissəsi xarici ölkələrdən alınır. Bu da bahalaşmaya gətirib çıxarır. Bu komponentlərin, hamısını olmasa da, çox hissəsinin istehsalı yerli sahibkarlara həvalə oluna bilməzmi? Bu işdə onlara güzəştli qiymətlərlə, kreditlərlə yardım göstərilə bilməzmi?***

- Bilirsiniz, Azərbaycan sahibkarları hər şeyi istehsal edə bilməz. Necə ki, bir ölkə hər şeyi istehsal edə bilməz. Dünya qloballaşıb, ölkələr, iqtisadiyyatlar, istehsal sahələri bir-birilərinə çox yaxındırlar, sıx əlaqəlidirlər.

**Ölkə daxilində istehsal coğrafiyası necə bölünürsə, dünyada da elədir. İndi biz hər nə var istehsal edək, axı bu, mümkün deyil. Misal üçün, ABŞ Rusiya-Ukrayna müharibəsinədək kosmosa uçurduğu raketləri Rusiyadan alırdı. Rusiya isə yerli avtomobil "VAZ"ın demək olar əksər komponentlərini xaricdən idxal edir. İndi müharibədir, embarqo tətbiq edilir, zavod dayanıb, işləmir. Rusiya tozsorandan tutmuş müharibədə istifadə etdiyi qanadlı raketlərin istehsalındakı istifadə etdiyi mikroçipləri də Tayvandan alırdı. Tayvan Rusiyanın orta şəhərlərindən də kiçikdir. Rusiya özü isə dünyanın ən böyük ölkəsidir. İndi Tayvan satmır, Rusiya da istehsal edə bilmir.**

Türkiyənin istehsal etdiyi "Bayraktar"lar hazırda yeni nəsil müharibənin simvoluna çevrilib, ancaq komponentlərin bəziləri xaricdən alınır. Dünya iqtisadiyyatı, ölkələrin iqtisadiyyatları çox sıx şəkildə bir-biriləri ilə əlaqədədir. Bu, qlobal dünyanın başlıca göstəricisidir.

**Eyni zamanda onu da qeyd etməliyik ki, dövlət nəyinsə istehsalını sahibkarlara, belə deyək, məcburən qəbul etdirə bilməz. Sahibkar kimdir? Özəl sektorun təmsilçisi. O, istehsal etdiyi məhsulu satmaq istəyir. İlkin hədəfi budur. Əgər məhsul satılacaqsa, istehsal edəcək. Əks halda etməyəcək. Bunu dövlət ona məcbur edə bilməz və etmək istəməz. Bizdə Sumqayıtdakı sənaye parkı nümunəsi var. Orada da özəl sektor çalışır və dövlət sahibkara hər cür dəstək verir. Nəticə olaraq istehsal edilən məhsul dünyanın müxtəlif ölkələrində satılır. Hazırda işğaldan azad olunan ərazilərdə də belə parkların yaradılması gündəmdədir. Ağdamda artıq bünövrəsi qoyulub və özəl sektorun ciddi marağına səbəb olub. Bir sözlə, proses gedir və hökumət həm istiqamət vermə, həm dəstək baxımından vəziyyətə nəzarət edir.**

***- Yazılanlara görə, yerli istehsalın ləng inkişafında inhisarçılığın da təsiri az deyil. Mövcud qanunlarımızla inhisarçılığa qarşı genişmiqyaslı mübarizə aparmaq, ona birdəfəlik son qoymaq mümkündürmü? Mümkün deyilsə, səbəbi nələrdir?***

- Dediklərinizlə razı ola bilmərəm. Biz az öncə müstəqillik tariximizin ən böyük büdcəsini qəbul etdik. Yerli istehsal ləng gedirsə, büdcədə qeyri-neft sektorunun payı necə artıb? Yaxud ixracatda qeyri-neft sektorunun nisbəti necə yüksəlib? Bilirsiniz, çox şey yazıla bilər, real iqtisadiyyat isə mövcud göstəricilərə, statistik məlumatlara, proqnozlara əsaslanır.

**İnhisarçılıqla mübarizədə dövlət də maraqlıdır və atılan bir sıra addımlar bunu sübut edir. Vergi və gömrük sistemində həyata keçirilən islahatlar, şəffaflığın təmin edilməsi istiqamətində təsirli addımlar atırıq və bu öz bəhrəsini verir. Əgər hökumət enerji daşıyıcılarından asılılığı azaltmaq və büdcə qeyri-neft sektorunun payını artırmaq kursunu elan edibsə, inhisarçılıq və monopoliya ilə mübarizənin zəifliyindən danışmaq mümkün deyil. Çünki inhisarçılıq ilk növbədə hökumətin elan etdiyi iqtisadi siyasətə ziddir, kursun qarşısında duran maneədir. Düşünürəm ki, həyata keçirilən kompleks tədbirlər zamanla öz müsbət nəticələrini göstərəcək.**

**Gülöyşə MƏMMƏDLİ**

# Vətəndaşlara 200 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb

**Dövlət Vergi Xidmətinin vətəndaşlara ödədikləri verginin bir qisminin geri qaytarılmasını təmin edən "ƏDV geri al" layihəsi özünü doğruldub. Layihənin tətbiq edildiyi ötən 2 il ərzində (2020-ci ilin may ayı) vətəndaşlar tərəfindən supermarketlərdə, müxtəlif ticarət və iaşə obyektlərində alış-veriş zamanı ödənilmiş pulların 214 milyon manatı ƏDV şəklində onların özlərinə geri qaytarılıb.**

**Alınmış mallara görə, ƏDV-nin bir hissəsinin qaytarılmasını təmin edən sistem - www.edvgerial.az portalında 2 il ərzində 1,7 milyona yaxın istifadəçi qeydə alınıb. Həmin istehlakçılara ticarət və iaşə obyektləri tərəfindən 536 milyondan artıq kassa çeki verilib ki, həmin çeklər üzrə alış-verişin məbləğinin geri qaytarılan ƏDV hissəsi təxminən 214 milyon manat təşkil edib.**

Təhlillər göstərir ki, hər ay ƏDV-nin geri alınması kampaniyasına vətəndaşların marağı artır və bunu onlayn ticarət əməliyyatlarının dövriyyəsi də təsdiqləyir. Məsələn, 2021-ci ilin ilk rübündə 26,7 milyon manatdan çox ƏDV məbləği geri qaytarılmışdırsa, 2022-ci ilin ilk 3 ayında bu rəqəm 42 milyon manatdan çox olub. Dinamikanın artması, sözsüz ki, nağd pul kütləsinin də həcminin azalmasına, nağdsız ödənişlərin xüsusi payının artmasına səbəb olur. Bunun nəticəsidir ki, 2022-ci ilin birinci rübündə nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə artıb. 2022-ci ilin mart ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 1 milyard 688 milyon manat təşkil edib.

ƏDV-nin müəyyən hissəsinin qaytarılması üçün ilk növbədə istehlakçı, yəni alış-veriş edən və ya xidmətdən yararlanan tərəf fiziki şəxs, satıcı və ya xidmət göstərən tərəf isə ƏDV ödəyicisi olmalıdır. Eyni zamanda alınan mal və ya xidmətlər də ƏDV-yə cəlb olunmalıdır. Digər məqam satıcının yeni nəsil kassa aparatlarından istifadə etməsi ilə bağlıdır.



**Qeyd edək ki, ƏDV-nin geri qaytarılması mexanizmi yalnız yeni nəsil kassa aparatlarının (NKA) tətbiq olunduğu ticarət və iaşə obyektlərində mümkündür. Qaydalara əsasən, ƏDV-nin müəyyən hissəsinin qaytarılması zamanı 3 məqam xüsusi diqqət çəkir. İlk növbədə istehlakçı, yəni alış-veriş edən tərəf fiziki şəxs olmalıdır. Bundan başqa, satıcı tərəf də mütləq ƏDV ödəyicisi olmalıdır. Supermarket və digər iri marketlərin əksəriyyətində, iaşə məntəqələrinin isə bir qismində yeni nəsil qurğular quraşdırılsa da, köhnə qurğular da az deyil. Hazırda ölkə üzrə tətbiq edilən onlayn kassaların sayı 58.095-dir. Ölkə üzrə ticarət və iaşə məntəqələrinin sayı isə 400 mindən artıqdır. Bu o deməkdir ki, əksər obyektlərdə bu aparatlar mövcud deyil. Yeni NKA-ların quraşdırılmasına 2019-cu ilin əvvəllərindən Bakı, Sumqayıt və Gəncə şəhərlərindən başlanılıb. Vergi Məcəlləsinin 77.5 və 77.7-ci maddələrinə əsasən, mövcud kassa aparatları vergi nəzarəti tədbirlərini tam həyata keçirməyə imkan vermir və bu məqsədlə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalara əsasən, müasir meyarlara cavab verən və Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş yeni NKA-ların quraşdırılması bütün ödəyicilər üçün əsas tələblərdən biridir. Hazırda bu proses qrafik üzrə mərhələli şəkildə aparılır və birinci mərhələdə iri ticarət mərkəzləri, şəbəkə sistemli marketlər və yanacaqdoldurma məntəqələrində quraşdırılma başa çatdırılıb. Eyni zamanda ötən il avtomobil satışını həyata keçirən vergi ödəyiciləri, şadlıq evləri, mebel satışı üzrə ixtisaslaşmış müəssisələrdə bu qurğuların tətbiqinə başlanılıb. Müasir NKA-ların tətbiqi dairəsinin genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə 2022-ci il yanvarın 1-dən dəyişikliklər edilib və mehmanxana, hotel tipli obyektlər, bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər (sabit vergi ödəyiciləri istisna olmaqla) tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmalarının nağdsız qaydada, yəni NKA vasitəsilə ödənilməsi nəzərdə tutulub. Vergi Xidməti bu prosesi 2022-ci ilin sonunadək başa çatdırmağı planlaşdırır. Yeri gəlmişkən, NKA-ların quraşdırılmasından imtina edən, yaxud quraşdırılmadan sonra həmin kassalardan istifadə etməyən obyekt sahibləri barəsində vergi qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyət tədbirləri görüləcək.**

Bütün bu tədbirlər, o cümlədən ƏDV-nin geri qaytarılması mexanizmi iqtisadiyyatın şəffaflaşdırılmasına xidmət edir və dövriyyədən kənarda qalan vergilərin büdcəyə ödənilməsinə və vergi daxilolmalarının həcminin artmasına mühüm təsir göstərir. Yeni nəsil nəzarət-kassa aparatları vergi ödəyicisinin fəaliyyətinə məsafədən nəzarət olunmasına şərait yaratdığından, eləcə də NKA çevik hesablaşma forması olduğundan kassa aparatlarının tətbiq edilməsi nəticəsində vergidən yayınmaq da mümkün olmur. Bu məqsədlə Vergi Xidməti layihənin əhatə dairəsini genişləndirmək üçün əlavə tədbirlər həyata keçirir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdən biri də məhz bu istiqamət üzrə bəzi xidmət sahələrinin də ƏDV-nin qaytarılması sisteminə cəlb edilməsidir. 2022-ci il yanvarın 1-dən etibarən səhiyyə və özəl tibb müəssisələrində vətəndaşların ödədikləri pul vəsaitlərinin də bir hissəsinin ƏDV şəklində onlara geri qaytarılmasına başlanılıb. Bu məqsədlə tibb müəssisələrində məcburi olaraq onlayn nəzarət-kassa aparatları quraşdırılıb.

**Hazırda digər sahələr üzrə də mal, iş və xidmətlərin əhatə dairəsinin genişləndirilməsi üzərində iş aparılır. Növbəti ildə bir sıra obyektlərdə də malların alışı və xidmətlərin göstərilməsi zamanı ƏDV-nin bir hissəsinin vətəndaşlara geri ödənilməsi üçün vergi qanunvericiliyinə yeni dəyişikliklərin edilməsi gözlənilir.**

**Elbrus CƏFƏROV**

Beynəlxalq




# İş yerlərində ölüm hallarının qarşısının alınması

**Həmkarlar ittifaqları Beynəlxalq İşçilərin Anım Günündə xəbərdarlıq edir ki, iş yerlərində təhlükəsizliyi yaxşılaşdırmaq üçün tədbirlər görülməsə, yaxın onillikdə Avropa İttifaqında (Aİ) 30 minədək insan iş yerində ölə bilər.**

Avrostat-ın məlumatına görə, son 10 ildə iş yerlərində ölümlə nəticələnən qəzaların sayı azalıb, amma bu nisbət sabit deyil, ölüm halları 2019-cu ildə yenidən artıb.

Avropa Həmkarlar İttifaqı İnstitutunun təhlilinə əsasən, dəyişikliklər son on ildə olduğu kimi eyni sürətlə davam edərsə, 2020-2029-cu illər arasında iş yerlərində əlavə 27,041 ölüm halı baş verə bilər.

***İspaniyada iş yerlərində ölüm hallarının sayının azalması gözlənilmir, Fransada vəziyyət daha da pisləşəcək və Avropada bu proses 30 il ərzində dayanmayacaq. Lakin siyasi iradə mövcud olsa, 2030-cu ilə qədər bunlara son qoyula bilər.***

Bu onillikdə iş yerində baş verə biləcək ölüm hallarının sayı və 2010-2019-cu illər tendensiyaları davam edərsə, ayrı-ayrı üzv dövlətlərdə ölümlə nəticələnən iş yeri qəzalarının aradan qaldırılacağı il:

**Polşa: 563 ölüm - 2027**
**Portuqaliya: 481 ölüm - 2030**
**Rumıniya 1451 ölüm - 2036**
**Avstriya: 694 ölüm - 2037**
**İtaliya: 3434 ölüm - 2042**
**Almaniya: 3143 ölüm - 2044**
**Çexiya: 851 ölüm - 2052**
**Fransa: 7803 ölüm - heç vaxt**
**İspaniya: 3191 ölüm - heç vaxt**
**Aİ 27: 27 041 - 2055**

Bu nəticələr Avropa Həmkarlar İttifaqları Konfederasiyası (ETUC) Avropa liderlərini işçilərin həyatını xilas etmək barədə tədbir görməyə çağıran iş yerində sıfır ölüm manifestini çap etdikdə əldə edildi.

Nazirlər, Avropa Parlamenti üzvləri, həmkarlar ittifaqı liderləri və əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə aparıcı ekspertləri tərəfindən imzalanan manifest 2030-cu ilə qədər iş yerlərində ölüm hallarına son qoymaq üçün əməyin mühafizəsi sahəsində maarifləndirmənin, yoxlamaların və cəzaların artırılmasına çağırıb.

Beynəlxalq Əmək Təşkilatının məlumatlarının ETUC tərəfindən təhlili göstərdi ki, hazırda Avropada son on illiyin əvvəli ilə müqayisədə iş yerlərində aparılan təhlükəsizlik yoxlamalarının sayı daha azdır.

**İş yerlərində baş verən qəzalarla yanaşı, ETUC həm də Aİ liderlərini hər il 100 mindən çox insanın ölümünə səbəb olan xərçəng xəstəliyindən və işçiləri iqlim dəyişikliyinin səbəb olduğu ekstremal hava hadisələrindən qorumaq üçün daha çox iş görməyə çağırır.**

ETUC Baş katibinin müavini Kleys-Mikael Ştal deyib ki, heç kim evdən çıxarkən işdən sonra ailəsinin yanına qayıdacaqmı deyə narahat olmamalıdır. Lakin bu, bir çox işçilər üçün gündəlik reallıqdır, çox vaxt gəlirləri artırmaq üçün məsuliyyətsiz işəgötürənlər və ideoloji səbəblərdən sağlam təhlükəsizlik qaydalarına və yoxlamalara hücum edən siyasətçilər səbəbindən.

Hər il minlərlə insan tikinti sahələrində, fabriklərdə və digər iş yerlərində baş verən ağır və qarşısı alına bilən qəzalar nəticəsində həyatlarını itirir. Milyonlarla insan da iş yerində xərçəngə səbəb olan maddələrə məruz qaldıqdan sonra ölür.

İş yerlərində baş verən ölümlər ötən əsrin bir hadisəsi kimi görünsə də, bu faciələr Avropada ən azı 30 il ərzində də davam edəcək. Baxmayaraq ki, bu, qaçılmaz deyil.

**İşçilərin xatirəsinə həsr olunmuş beynəlxalq gündə biz həlak olanları yada salır və sağ qalanlar üçün mübarizə aparacağımıza söz veririk. Siyasətçilər hərəkətə keçməyə hazır olsalar, 2030-cu ilə qədər biz iş yerində sıfır ölümə nail ola bilərik. İşçilərin həyatını prioritet hesab etməyin vaxtı çatıb.**

# Mitinqlərdə işçilərin hüquqlarının yaxşılaşdırılmasına çağırıblar



**İndustriALL-ın üzv təşkilatları bu il bütün dünyada təşkil etdikləri 1 May mitinqlərində işçilərin hüquqlarının yaxşılaşdırılmasına çağırıblar. Tailandda İndustriALL-ın üzv təşkilatı CILT mitinqdə daha yüksək minimum əməkhaqqı, 180 günlük analıq məzuniyyəti, sosial təminat sistemində islahatlar və BƏT-in 4, 87 və 98 saylı konvensiyalarının ratifikasiyası tələbi ilə digər həmkarlar ittifaqlarına qoşuldu.**

Şri-Lankada həmkarlar ittifaqları ölkənin ağır iqtisadi vəziyyətini həll etmək üçün təcili siyasi həll yollarına çağırıb.

Monqolustanda MEGM həmkarlar ittifaqları işəgötürənlərin işçilərin maaşlarını oğurlamasına icazə verdiyi yeni əmək qanununa etiraz etmək üçün 1 May mitinqindən istifadə etdi. İndustriALL-ın üzv təşkilatları səkkiz saatlıq iş gününə çağırıblar.

**Kamboca Əmək Hərəkatı Konfederasiyası (CCW), İşçi Hərəkatının Kollektiv İttifaqı (CUMW), Həmkarlar İttifaqlarının Müstəqil Koalisiyası (ILUC), Kamboca Xalq Həyatının İnkişafı Assosiasiyası (CDPLA), Ev İşçiləri Assosiasiyası (ADW) birgə bəyanatda Kamboca hökumətini BƏT-in 144, 183, 189 və 190 saylı konvensiyalarını ratifikasiya etməyə və BƏT-in 87 və 98 saylı konvensiyalarının icrasını nəzərdən keçirməyə çağırıb.**

Koreyada 16 bölgədə 75 min işçi mitinq keçirdi və 14 min işçi paytaxt Seulun küçələrinə çıxaraq, bütün işçilər üçün ayrı-seçkilik olmadan əməkhaqları və təhlükəsiz iş yeri hüququ və işçi əleyhinə siyasətlərə son qoyulması çağırışı etdi.

Filippində həmkarlar ittifaqları aşağı əməkhaqqı, əməyin mühafizəsi və təhlükəsizliyi məsələlərinə toxundu və koronavirus böhranı zamanı iş yerində zorakılıq və təqiblərə son qoyulmasını tələb etdi.

**İndustriALL-ın Afrika ölkələrindəki üzv təşkilatları iş dünyasında ləyaqətin bərpası üçün kampaniya apararaq, 1 May bayramını qeyd etmək üçün toplaşdılar.**

Materialları hazırladı: Azər MUSTAFAYEV

# VII institutlararası futbol turniri

**Aprelin 25-də AMEA-nın Azad Həmkarlar İttifaqının (AHİ) maliyyə dəstəyi və təşkilatçılığı ilə keçirilən gənc alim və mütəxəssislərin VII institutlararası futbol turnirinin açılışı olub.**




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyinə həsr edilən ənənəvi turnirin açılış mərasimində AMEA-nın vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, Dilqəm Tağıyev, AHİ-nin sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov, Gənc Alim və Mütəxəssislər Şurasının sədri, kimya üzrə fəlsəfə doktoru Elmir Babayev, bir sıra elmi müəssisə və təşkilatların baş direktorları, həmkarlar ittifaqı komitələrinin sədrləri və gənc alimlər iştirak ediblər.

Akademiya Şəhərciyində yerləşən stadionda baş tutan açılış mərasimində çıxış edən professor Habil Qurbanov sonuncu turnirin pandemiya ilə əlaqədar 3 il əvvəl keçirildiyini söylədi. İştirakçıların sayını nəzərə alsaq, bu turnirə hələ də marağın böyük olduğunu görərik dedi. Turnirdə Akademiyanın 20 elmi müəssisə və təşkilatından 19 komandanın iştirak etdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, 25 aprel - 25 may tarixlərində keçirilməsi planlaşdırılan oyunlar AFFA-nın peşəkar hakimi tərəfindən idarə ediləcək.

**Sonra çıxış edən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bu turniri Akademiyada həyata keçirilən sosial, mədəni, mənəvi tədbirlərin tərkib hissəsi adlandırıb.**

O, idmançı alimlərə uğurlar arzulayıb.

Mərasimdə çıxış edən AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev turnirin zehni əməklə məşğul olan gənc alim və mütəxəssislərin idman həyatına və sağlamlıqlarına müsbət təsir göstərəcəyini vurğulayıb.

**Daha sonra Respublika Seysmoloji Xidmət Mərkəzi və Dendrologiya İnstitutunun komandalarının görüşü ilə çempionatın qrup oyunlarına start verilib.**

# Muzey işçilərinə mükafatlar verildi



**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi əlamətdar hadisələrlə bağlı bir neçə mədəniyyət ocağının əməkdaşlarının səmərəli əməyini qiymətləndirdi. Böyük dramaturq, görkəmli teatr və kino xadimi Cəfər Cabbarlının ev müzeyinin yaradılmasından 40 il ötür. Muzeydəki eksponatların qorunub saxlanmasında, təbliğində böyük xidmətləri olan işçilərə Respublika Komitəsinin Fəxri Fərmanı və pul mükafatı təqdim olundu.**




Digər klassik yazıçımız - Azərbaycan tarixi roman janrının banisi Məmməd Səid Ordubadinin anadan olmasının 150 illiyi ölkəmizdə qeyd edilir. Böyük yazıçının yubiley yaşı ilə əlaqədar təşkil edilən tədbirlər çələnginə onun adını daşıyan Xatirə Muzeyinin işçiləri də öz töhfələrini vermişlər. MİHİ RK bu mədəniyyət ocağının bir qrup daha fəal, uzun iş stajına malik əməkdaşını Fəxri Fərman və pul mükafatı ilə təltif etdi.

**Respublika Komitəsi görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Meşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 illiyi və F.Əmirov adına 6 saylı onbirillik İncəsənət Məktəbinin yaranmasının 60 illik yubileyi ilə əlaqədar məktəbin müəllimləri ilə görüşüb. Yubiley tədbirlərində fərqlənən və böyük xidmətləri olan əməkdaşları Fəxri Fərman və pul mükafatı ilə təltif edib.**



# Ənənəvi idman yarışlarının keçirilməsi



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və ona üzv olan təşkilatlar Ümumilli lider Heydər Əliyevin 99-cu ildönümü münasibətilə bir sıra tədbirlər həyata keçirir. Bununla əlaqədar idman yarışlarının keçirilməsi artıq ənənə halına çevrilib. Futbol yarışları, ağırlıqqaldırma, şahmat oyunları və digər idman tədbirləri böyük maraq kəsb edir və təqdirəlayiq hal kimi qiymətləndirilir.**

AHİK-ə üzv olan Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Ümumilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin struktur bölmələri arasında minifutbol, qaçış, daşqaldırma, turnikdə dartınma və nərd üzrə idman yarışları keçirəcək. Aprelin 25-də minifutbol yarışlarına start verilib. Tədbir Milli Aviasiya Akademiyasının İdman Sağlamlıq Mərkəzinin futbol meydançasında baş tutub. Çıxış edən Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Mübariz Əsədov yarış iştirakçılarına uğurlar arzulayaraq ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan, dövlətimizin uğurlu idman siyasətindən danışıb. Qeyd edib ki, Azərbaycan bir çox sahələrdə olduğu kimi, dünyada idman ölkəsi kimi də öncül sıralardadır. Olimpiya yarışlarında, beynəlxalq turnirlərdə idmançılarımızın əldə etdiyi nailiyyətlər, qazanılan medallar ölkəmizdə idmana göstərilən xüsusi diqqət və qayğının təzahürüdür. O bildirib ki, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilən final yarışları may ayının 10-da başa çatacaq və qaliblər həmkarlar ittifaqı tərəfindən mükafatlandırılacaq.

**Sonra minifutbol yarışına start verildi və komandalar arasında qələbə uğrunda mübarizə başladı.**

# Himayəyə götürdükləri ailələrdə oldular

**Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının məsul işçiləri - aparat rəhbəri Rüfət Bürcəliyev, təlimatçı - təftişçisi Fərid Qasımov, "Az-Granata" MMC-nin Həmkarlar İttifaqı Komitəsinin sədri Cabbar Məmmədov və Qazax Rayon Komitəsinin sədri Fərhad Qocamanov sahə müəssisələrində çalışmış 2016-cı il Aprel döyüşlərində Şəhidlik zirvəsinə yüksəlmiş Rahim Qara oğlu Tağıyevin, Vətən müharibəsi şəhidi Hüseyn Müşviq oğlu Səmədovun və əmək vəzifəsi borcunu yerinə yetirərkən mina partlayışı nəticəsində həyatını itirmiş Məmməd Ələddin oğlu Mərdənovun ailələrini ziyarət etmişlər.**




Onları Ramazan bayramı münasibətilə təbrik etmişlər.

**Federasiyanın sədri Tofiq Quliyev deyir ki, Məmməd istisna olmaqla, adlarını çəkdiyiniz iki şəhidin ailəsini təşkilatımız himayəyə götürüb. Hər ay büdcəmizdən bu ailənin hesabına nağd pul köçürülür. Lakin biz nağd pul köçürməklə kifayətlənmirik. Vaxtaşırı ailə üzvləri ilə görüşlər keçiririk. Himayəçi missiyamızı müxtəlif formalarda həyata keçiririk.**

# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

Son səhifə

CÜMƏ AXŞAMI, 05 MAY 2022-Cİ İL / № 16 (1283)





## REKLAM

Azərbaycan Respublikası
Bakı şəhəri
"Cəfəroğlu Audit" MMC
VÖEN 1903370371

CƏFƏROĞLU AUDİT

Azerbaijan Republic
Baku City
"Cəfəroğlu Audit" LTD
İNN 1903370371

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Pirsaat Quşçuluq" ASC-nın (VÖEN 8100001461) rəhbərliyinə**

**Rəy**

Biz "Pirsaat Quşçuluq" ASC-nın 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"Cəfəroğlu Audit" MMC-nin direktoru** — **Rzalı Şəhla Tahir qızı**

(Möhür: AZƏRBAYCAN RESPUBLİKASI * CƏFƏROĞLU AUDİT MMC VÖEN 1903370371 * BAKU * AZERBAIJAN REPUBLIC)

**01.03.2018-ci ii tarixli SA/396 nömrəli Icazənin sahibi auditor** — **Rzayev Ramin Baxşəli oğlu**

**Bakı şəhəri, Azərbaycan**
**30 aprel 2022-ci il**

### PİRSAATÇAY-QUŞÇULUQ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
### VÖEN: 8100001461
### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 2021-ci il

manat

| | AKTİVLƏR | Qeydlər | 2021 | 2020 |
|---|---|---|---|---|
| | 1 | | | |
| | **I. Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 484,003.44 | 253,460.00 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | - | - |
| 13 | Bioloji aktivlər | | | 169,500.00 |
| 14 | Təbii sərvətlər | | - | - |
| 15 | İştirak payı metodu il uçota alınmış investisiyalar | | - | - |
| 16 | Taxirə salınmış vergi aktivləri | | - | - |
| 17 | Uzunmüddətli debitor borcları | | - | - |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | - | - |
| 19 | Sair uzunmüddətli aktivlər | | - | - |
| | **Cəmi uzunmüddətli aktivlər** | | 484,003.44 | 422,960.00 |
| | **II. Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 7 | 2,711.50 | 2,248.80 |
| 21 | Qısamüddətli debitor borcları | 8 | 49,261.35 | 40,005.67 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 1,448.18 | 66,790.14 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| 24 | Sair qısamüddətli aktivlər | 10 | 4,761.93 | 35,531.84 |
| | **Cəmi qısamüddətli aktivlər** | | 58,182.96 | 144,576.45 |
| | **Cəmi aktivlər** | | 542,186.40 | 567,536.45 |

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 2,021 | 2,020 |
|---|---|---|---|---|
| | 1 | | | |
| | **III. Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 11 | 317,084.00 | 381,144.97 |
| 31 | Emissiya gəliri | | - | - |
| 32 | Geri alınmış kapital (səhmlər) | | - | - |
| 33 | Kapital ehtiyatları | | - | - |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | .12 | 182,637.12 | 100,131.10 |
| | **Cəmi kapital** | | 499,721.12 | 481,276.07 |
| | **IV. Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 42 | Taxirə salınmış vergi öhdəlikləri | | - | - |
| 43 | Uzunmüddətli kreditor borcları | | - | - |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | - | - |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | - | - |
| | **V. Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 13 | - | 444.04 |
| 53 | Qısamüddətli kreditor borcları | 14 | 42,465.28 | (228.69) |
| 54 | Sair qısamüddətli öhdəliklər | 15 | - | 86,045.03 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 42,465.28 | 86,260.38 |
| | **Cəmi öhdəliklər** | | 42,465.28 | 86,260.38 |
| | **Cəmi kapital və öhdəliklər** | | 542,186.40 | 567,536.45 |
| | | | 0.00 | 0.00 |

Rəhbər ________ (imza) R.Qasımov (a.s.a.a.) Muhasib ________ (imza) İ.Rəhimov (a.s.a.a.)

### PİRSAATÇAY-QUŞÇULUQ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
### VÖEN: 8100001461
### MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
### 2021-ci il

manat

| Bölümün/ maddənin №-si | | Qeydlər | Hesabat ilinin sonuna | Hesabat ilinin əvvəlinə |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 16 | 2,768,854.55 | 922,671.00 |
| 70 | Satışın maya dəyəri | 17 | 2,500,347.50 | 748,933.88 |
| | **Ümumi Mənfəət** | | **268,507.05** | **173,737.12** |
| 61 | Sair əməliyyat gəlirləri | | | |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | 18 | 26,628.68 | 7,598.46 |
| 73 | Sair əməliyyat xərcləri | 19 | 585.70 | 2,472.00 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasındanmənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | 20 | **241,292.67** | **163,666.66** |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | | 241,292.67 | 163,666.66 |
| 90 | **Mənfəət vergisi** | | | |
| | Adi fəaliyyətdən mənfəət (zərər) | | | -28,310.07 |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 80 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 21 | **241,292.67** | **135,356.59** |
| | Bazis hər bir səhmin mənfəəti | | | |
| | Qatılmış hər bir səhmin mənfəəti | | | |

Rəhbər ________ (imza) R.Qasımov (a.s.a.a.)

Baş mühasib ________ (imza) İ.Rəhimov (a.s.a.a.)





**Nabranda təmirdən yeni çıxmış otelimizdə, bütün növ əyləncələr daxil, 2 nəfərlik təkotaqlı və 2 nəfərlik 2 otaqlı, hər şəraiti olmaqla (gündə 3 dəfə yemək) dəniz kənarında, meşə yaxınlığında yaz və yay mövsümü üçün xidmətə hazırdır. Turistlərə yüksək ixtisaslı peşəkar aşpazlar və ofisiantlar xidmət göstərir. Bir nəfər üçün bir günün qiyməti 42 AZN-dir.**

**Yollayışların (putyovkaların) idarə, təşkilat və müəssisələrə satışı (ödəniş nağd və köçürmə yolu ilə) elektron qaimə əsasında həyata keçirilir.**

**Yollayışları (putyovkaları) əvvəlcədən sərfəli qiymətə əldə etməyə tələsin.**

**Ünvan: Nabran, "Səyahət" İstirahət Mərkəzi**

**Əlaqə telefonları: 0503346696**
**0703346696**



### "PİRSAATÇAY - QUŞÇULUQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ ÜZRƏ

## Bildiriş

**"Pirsaatçay - Quşçuluq" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ elan edir ki, səhmdarların növbəti ümumi yığıncağı 20 iyun 2022-ci il tarixdə, saat 10:00-da keçiriləcəkdir.**

**Yığıncaqda müzakirə olunması nəzərdə tutulan məsələlər aşağıdakılardır:**

**1. "Pirsaatçay - Quşçuluq" ASC-nin 2021-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və maliyyə hesabatlarının təsdiqlənməsi.**

**2. Mənfəətin bölüşdürülməsi ilə bağlı məsələlərin müzakirəsi.**

**3. Digər məsələlər.**

**Səhmdarların yığıncağının gündəliyində nəzərdə tutulmuş məsələ ilə bağlı materiallarla tanış olmaq üçün "Pirsaatçay - Quşçuluq" ASC-nin ofisinə müraciət edə bilərlər.**

**Ünvan: Hacıqabul rayon Rəncbər kəndi.**





**Deyilənə görə, əmək pensiyalarının bir hissəsi dövlət büdcəsi hesabına maliyyələşir. Bu, pensiyanın hansı növünə aiddir?**

**Mərdan RƏSULOV, Daşkəsən rayonu.**

- Əmək pensiyası ödənişinin maliyyə mənbələri "Əmək pensiyaları haqqında" qanunla tənzimlənir.

Belə ki, əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə bəzi kateqoriyadan olan əmək pensiyaçılarına "Əmək pensiyaları haqqında" qanunun 20-ci maddəsində nəzərdə tutulan qulluq stajına görə əmək pensiyasına əlavələr dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir. Qeyd olunan mənbələrin birində vəsait çatışmazlığı olduqda, müvafiq xərclər digər mənbə hesabına maliyyələşdirilir.

Əmək pensiyasının yığım hissəsinin müəyyən edilməsi və ödənilməsi sığortaolunanın fərdi hesabının yığım hissəsində müvafiq vəsait olduğu halda həyata keçirilir.

**İşçilərə məzuniyyət verilməsi necə rəsmiləşdirilir və onun uçotu aparılırmı?**

**Məzahir İMANOV, Gədəbəy rayonu.**

- Bütün növ məzuniyyətlərin verilməsi işçinin ərizəsi əsasında işəgötürənin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir. Əmrdə (sərəncamda, qərarda) işçinin adı, atasının adı və soyadı, vəzifəsi (peşəsi), verilən məzuniyyətin növü, müddəti, müvafiq iş ili, məzuniyyətin başlandığı, qurtardığı və məzuniyyət müddəti bitdikdən sonra işçinin işə başlamalı olduğu il, ay, gün göstərilir.

Məzuniyyətin verilməsi barədə əmr (sərəncam, qərar) məzuniyyətin başlanmasına azı beş gün qalmış verilir və işçi onunla tanış edilir.

İşəgötürən məzuniyyətlərin verilməsinin uçotunu dürüst və vaxtında aparmağa borcludur. Məzuniyyətlərin verilməsinin uçotu işçilərin iş illəri, məzuniyyətlərin növləri, müddətləri, verildiyi vaxt və müvafiq əmrin (sərəncamın, qərarın) nömrəsi, tarixi göstərilməklə aparılmalıdır. Məzuniyyətlərin verilməsi işəgötürənin imkanlarına müvafiq olaraq kompüter proqramları və ya sadələşdirilmiş kargüzarlıq yolu ilə aparılır.

Əmək məzuniyyətlərinin verilməsinin düzgünlüyünün təmin olunması məqsədilə məzuniyyətlərin uçotu işçilərin iş illəri üzrə aparılır.

**Yaşayış sahəsi dedikdə nə başa düşülür və onun hansı növü vardır?**

**Səmayə CƏFƏRLİ, Sumqayıt şəhəri.**

- Yaşayış sahəsinin əsas təyinatı həmin sahədə insanların yaşamasıdır.

Yaşayış sahələrinə aşağıdakılar aiddir:

- yaşayış evi, yaşayış evinin hissəsi;
- mənzil, mənzilin hissəsi;
- otaq;
- yerləşmə vasitələri.

Mənzil Məcəlləsinin 13-cü maddəsinə əsasən, otaqlardan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət fərdi müəyyən edilmiş ev yaşayış evi hesab edilir.

Bir və ya bir neçə otaqdan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət, çoxmənzilli binanın ümumi istifadədə olan sahələrinə birbaşa daxil olmaq imkanını təmin edən strukturca ayrıca sahəsi mənzil hesab edilir.

Yaşayış evinin və ya mənzilin bilavasitə yaşamaq üçün nəzərdə tutulmuş ayrıca hissəsi otaq hesab edilir.

Mehmanxanalar, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən mehmanxana tipli obyektlər və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektləri yerləşmə vasitələri hesab edilir.

**Pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanmasına görə məsuliyyət varmı?**

**Səfiyyə MƏMMƏDOVA, Bakı şəhəri.**

- Əmək Məcəlləsində işəgötürənin əsas hüquqları, vəzifələri və məsuliyyəti müəyyən edilmişdir. Məcəllənin 12-ci maddəsinin 2-ci hissəsinə əsasən, işçilərin hüquqlarını pozan, əmək müqaviləsi üzrə öz öhdəliklərini yerinə yetirməyən, 15 yaşına çatmamış şəxsləri işə götürən, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edən (qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsi bağlayan), habelə Əmək Məcəlləsinin tələblərinə əməl etməyən işəgötürən qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq məsuliyyətə cəlb edilir.

İnzibati Xətalar Məcəlləsinin 192.12.-ci maddəsinə əsasən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə - vəzifəli şəxslər üç min manat məbləğində cərimə edilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

**Allah rəhmət eləsin!**

Təhsil İşçiləri Azad Hİ Sumqayıt Şəhər Komitəsinin sədri Xudaverdi Əliyev və kollektivi komitənin aparıcı məsləhətçisi Samir Əzimova atası

**SADİQ ƏZİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 1253
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət